# İnformasiya savaşının sərkərdəsi!

Səs
№ 182 (6382) 7 oktyabr 2021-ci il. Qiymətі 40 qəpik



Səhifə 2

## Prezident İlham Əliyevin müsahibələri Azərbaycanın haqlı mövqeyini dünyaya çatdırır...




## Rodion Panin: "Azərbaycanın qələbəsi xeyirin şər üzərində qələbəsi idi"

15



## Kişilər niyə iki telefondan istifadə edir?

10




Səhifə 16

## Erməni terrorunun izi və tarixi: Gəncə qətliamı

*Yaşadığımız yüzillik bəşər sivilizasiyasının yüksək nöqtəsi olaraq qəbul edilir və ağılın, idrakın sivil nöqtəyə yüksəldiyi zamanda insana sui-qəsdin edilməsi, düşünülmüş terrorun törədilməsi əlbəttə ki, qəbuledilən deyil. Terrorizm müasir dövrün ən təhlükəli təzahürlərindən biridir və müasir dünya bunun acı nəticələrini*

Bax14

### Erməni KİV-ləri Gürcüstana qarşı ərazi iddiası irəli sürdülər

*"Gürcüstanda nahaq yerə hesab edirlər ki, bənzər antiermeni davranışları onların rahatlıqlarını pozmayacaq". Bu fikirlərlə Ermənistanın armenianreport analitik...*

## Məktəblərdə yenidən "Müəllimlər günü"nə pul yığılır?




8

"Sosial şəbəkələrdə məktəblərdə pul yığılması ilə bağlı olan iddialara cavab olaraq bildirə bilərəm ki, Təhsil Nazirliyi tərəfindən hər zaman ictimaiyyətə müraciət olunur ki, məktəblərdə pul yığılması ilə bağlı hallar varsa, mütləq şəkildə Təhsil Nazirliyinin "Qaynar Xətt"inə zəng etsinlər və məlumat versinlər. Əmin olsunlar ki, bu kimi hallarda nazirlik həmin...

## Qarabağ zəfəri Azərbaycanın əbədi qürur mənbəyidir




*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə aparılan 44 günlük Qarabağ müharibəsi xalqımızın çoxəsrlik tarixində, şüurunda ən möhtəşəm qələbə kimi həkk olundu...*

4

Bax4

### "Xarı bülbül" abidəsi inşa edilib

***2020-ci il dövlətçilik tariximizə qızıl hərflərlə yazıldı, Zəfər ili kimi həkk olundu. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuz işğalçı Ermənistan üzərində möhtəşəm Qələbə qazandı, xalqımızın 30 illik həsrətinə son qoyuldu.***

## İranın Azərbaycandakı agentura şəbəkəsi varmı? - Türkiyə İranla sərhəd-keçid məntəqəsini bağlayıb



## 4 badamı 24 saat suda saxlasanız nə olar?



16



## İranı narahat edən nədir?

13

## "Zəfər tarixinin canlı şahidi olduğum üçün qürur duyuram"

"Bu, qalib Azərbaycan xalqının şanlı Zəfəri oldu". Bunu SİA-ya açıqlamasında "Davam" Gənclər Hərəkatının İdarə Heyətinin üzvü, idmançı Rasul Çunayev deyib. Onun sözlərinə görə, həm ölkə daxilində, həm də xaricdə yaşayan azərbaycanlıların hamısı Zəfər tarixi ilə bağlı olaraq qürur hissi...



16

# “Azərbaycan Avropa İttifaqı üçün önəmli tərəfdaşdır”

## *Prezident Ilham Əliyev Avropa Ittifaqının ölkəmizdəki nümayəndəliyinin yeni təyin olunmuş rəhbərinin etimadnaməsini qəbul edib*

### *"Bizim ikitərəfli münasibətlərimiz, regional inkişaf, postmüharibə vəziyyəti ilə bağlı baxışlarımız tamamilə üst-üstə düşür"*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin yeni təyin olunmuş rəhbəri Petr Mixalkonun etimadnaməsini qəbul edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısını salamlayan səfir **Petr Mixalko** bildirib ki, Azərbaycan Avropa İttifaqı üçün önəmli tərəfdaşdır:

-Zati-aliləri, hörmətli cənab Prezident İlham Əliyev.

Bu gün Avropa İttifaqı Şurasının prezidenti cənab Şarl Mişel və Avropa Komissiyasının prezidenti xanım Ursula Fon der Lyayen tərəfindən imzalanmış və mənim Avropa İttifaqının Azərbaycan Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin olunmağımla bağlı etimadnaməni Sizə təqdim etməkdən şərəf hissi duyuram.

Son səfərlərdə, o cümlədən prezident Mişelin səfərində vurğulandığı kimi, Azərbaycan Avropa İttifaqı üçün önəmli tərəfdaşdır. Biz iqtisadiyyat, innovasiyalar, ticarət, enerji, investisiyalar, infrastruktur və əməkdaşlıq kimi mühüm sahələrdə güclü tərəfdaşlıq şəraitində birlikdə işləməyə hazırıq. Avropa İttifaqı ilə Azərbaycan arasında yeni hərtərəfli Sazişin imzalanması bizim əsas prioritetimiz olacaqdır. Biz əminik ki, bu, nəinki bizim ikitərəfli əməkdaşlığımızın genişləndirilməsinə kömək edəcək, eyni zamanda, Azərbaycan iqtisadiyyatının daha da gücləndirilməsinə xidmət edərək onun çiçəklənməsi və şaxələnməsini artıracaq.

Avropa İttifaqı ”Şərq tərəfdaşlığı” Proqramı çərçivəsində sabit, təhlükəsiz və çiçəklənən Cənubi Qafqazın olmasında maraqlıdır. Biz nəzərdə tutulan Şərq Tərəfdaşlığı Sammitinə hazırlıq prosesində Azərbaycanın fəal iştirakını və töhfəsini səbirsizliklə gözləyirik. Biz, həmçinin ATƏT-in Minsk qrupuna əlavə olaraq etimadın artırılması və sülhün qurulması prosesində üzərimizə rol götürməyə də hazırıq. Tərəflərin marağı olarsa, biz layihə imkanlarından istifadə edərək sərhədlərin delimitasiyası və demarkasiyası kimi sahələrdə təcrübəmizi bölüşməyi təklif edirik.

Avropa İttifaqı COVID-19 pandemiyasının təsiri kontekstində sosial və iqtisadi artım üçün və iqtisadi dirçəliş, dayanıqlılıq naminə birlikdə işləmək məqsədilə Azərbaycana dəstək verməyə davam edəcəkdir.

Zati-aliləri, Avropa İttifaqının Azərbaycan Respublikasına səfiri kimi təyin olunmaq mənim üçün şərəfdir. Mən qarşılıqlı faydalı əməkdaşlıq və ümumi maraqlarımız naminə səylərimi əsirgəməyəcəyəm. Vəzifələrimin icrasında Zatialilərinin və Azərbaycan Respublikası hökumətinin dəstəyinə güvənərək ondan faydalanacağıma əminəm və buna görə Sizə minnətdaram.

**Prezident İlham Əliyev:** Təşəkkür edirəm.

Səfir Petr Mixalko etimadnaməsini Azərbaycan Prezidenti İlham Əliyevə təqdim edib.





Səfiri salamlayan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qeyd edib ki, biz Avropa İttifaqına səylərin səfərbər olunması və postmüharibə vəziyyətinə töhfə verilməsi prosesində böyük tərəfdaşımız və dürüst vasitəçi kimi güvənirik:

-Cənab səfir, Azərbaycana xoş gəlmisiniz. Sizə ölkəmizdə xoş vaxt keçirməyi arzu edirəm. Həyatınızın bir hissəsi bizim ölkəmizlə bağlı olacaqdır. Ümid edirəm, siz nəinki indi haqqında danışdığımız məsələlərin təşviqində bir səfir kimi fəal olacaqsınız, eyni zamanda, sizin ətrafı görmək və Azərbaycanı daha da yaxşı tanımaq imkanınız olacaqdır ki, Brüsselə və ya hər hansı başqa bir yerə geri döndükdə özünüzlə yaxşı xatirələr aparasınız. Siz qeyd etdiyiniz kimi, əməkdaşlığımızın, uzunmüddətli əməkdaşlığımızın çox geniş gündəliyi var. Bu, çox səmərəli və uğurlu əməkdaşlıqdır. Sizin qeyd etdiyiniz sahələr, əslində, bizim əməkdaşlığın prioritet sahələridir və prezident Şarl Mişelin bu yay səfəri zamanı biz bu məsələləri geniş müzakirə etdik. Bizim ikitərəfli münasibətlərimiz, regional inkişaf, postmüharibə vəziyyəti ilə bağlı baxışlarımız tamamilə üst-üstə düşür. Biz Avropa İttifaqına səylərin səfərbər olunması və postmüharibə vəziyyətinə töhfə verilməsi prosesində böyük tərəfdaşımız və dürüst vasitəçi kimi güvənirik. Bizim ənənəvi əməkdaşlıq sahələrimiz yaxşı məlumdur və biz böyük nailiyyət əldə etmişik. On il bundan əvvəl bu binada Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində əməkdaşlığa, enerji təhlükəsizliyinə dair Bəyannamə imzalandı. Bu, Cənub Qaz Dəhlizinin icrası istiqamətində çox mühüm addım idi. Bundan sonra əməli addımlar atıldı və ötən ilin son günündən bu yana biz artıq əməli nəticələri görürük. Azərbaycan qazı artıq Avropa bazarındadır.

Əlbəttə ki, bizim böyük layihə olan Cənub Qaz Dəhlizinin tamamlanması ilə bağlı planlarımız bununla məhdudlaşmır. Biz görürük ki, Avropa İttifaqının bir çox başqa üzvlərinin də təchizatçısı ola bilərik. Biz təchizatımızın coğrafiyasını genişləndirmək üçün Avropa İttifaqı ilə birgə işləməyi planlaşdırırıq - xüsusilə indi, qışda hər kəs görəndə ki, alternativ marşrut baxımından alternativ mənbə məhz enerji təhlükəsizliyidir.

Avropa Komissiyasının bizim nəqliyyat sektorumuza böyük əhəmiyyət verməsi məni çox qane edir. Prezident Şarl Mişelə səfəri zamanı ona bizim Dəniz Ticarət Limanının, Azad İqtisadi Zonanın imkanları təqdim olundu. Biz Avropa təsisatlarının bu sahəyə ciddi yanaşmasını görürük. Bu, təkcə iqtisadi, nəqliyyat sahəsində əməkdaşlıq baxımından deyil, həm də ümumilikdə regionda sabitlik və təhlükəsizlik baxımından həqiqətən də çox ümidverici sahə ola bilər. Çünki əməkdaşlıq ölkələri birləşdirir, onları bir-birindən asılı edir, onlar faydanı paylaşa bilir. Həmin səbəbdən də bu, hər hansı yanlış anlaşılma risklərini minimuma endirir. Siz bəlkə də bilirsiniz ki, biz Azərbaycanda nəqliyyat infrastrukturu şəbəkəsinin bütün vacib elementlərini tamamlamışıq və biz hazırıq, artıq bu potensialdan istifadə edirik.

Sizin qeyd etdiyiniz digər sahələr də çox mühümdür. Humanitar, təhsil, sözsüz ki, Azərbaycanın demokratik inkişafı ilə bağlı bütün bu məsələlər bizim gündəliyimizdədir və biz Avropa İttifaqı ilə sıx şəkildə işləyirik.

Əlbəttə, indi düşünürəm ki, ən mühüm sahələrdən biri postmüharibə dövründə inkişafın, davamlı sülhün və əməkdaşlığın bərqərar olmasına Avropa İttifaqının töhfəsidir və biz buna hazırıq. Siz bəlkə də mənim bununla bağlı bəyanatlarımı eşitmişiniz. Mən nəzərdə tutduğumu deyirəm, bu, bizim siyasətimizdir. Biz səhifəni çevirmək, qonşumuz Ermənistanla əlaqələr qurmaq istəyirik. Biz sülh razılaşması, delimitasiya, kommunikasiyaların açılması ilə bağlı danışıqlara başlamağa hazırıq. Bu proses qismən başlayıb. Lakin düşünürəm ki, əgər Avropa İttifaqı fəal iştirak etsə, -mən belə bir istəyin olduğunu görürəm, - bu, bir çox sahələrdə bizə kömək edə bilər. Ümumilikdə Cənubi Qafqazda vəziyyət 30 il ərzində olmayan tamamilə yeni bir miqyas ala bilər. Bu da sabitlik, proqnozlaşdırılma və sülhün çox mühüm amili ola bilər.

Əminəm ki, siz çox məşğul olacaqsınız, çünki görüləsi çox iş var. Mən sizə və ailənizə uğurlar, Azərbaycanda yaxşı vaxt keçirməyi arzulayıram.

Səfir Petr Mixalko qarşılıqlı səmərəli əməkdaşlığın nəticə verməsi üçün çox fəal şəkildə işləməyə hazır olduğunu dedi. Vurğuladı ki, Prezident İlham Əliyevin qeyd etdiyi sahələr onlar üçün də böyük əhəmiyyət kəsb edir. O, gələcəkdə əməkdaşlıq üçün çoxlu imkanların yaranacağına əminliyini ifadə etdi.

## Rəsmi xronika

Prezident İlham Əliyev M.İ.Adnayevanın Naxçıvan Muxtar Respublikası Sədərək Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında Sərəncam verib. Trend xəbər verir ki, Sərəncamla Mahirə İsmayıl qızı Adnayeva Naxçıvan Muxtar Respublikası Sədərək Rayon İcra Hakimiyyətinin başçısı təyin edilib.

* * *

Prezident İlham Əliyev L.S.Qəndilovun Azərbaycan Respublikasının Qırğız Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında Sərəncam verib. Trend xəbər verir ki, Sərəncamla Lətif Seyfəddin oğlu Qəndilov Azərbaycan Respublikasının Qırğız Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilib.

* * *

Dövlət başçısının digər Sərəncamına əsasən, Hidayət Xuduş oğlu Orucov Azərbaycan Respublikasının Qırğız Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılıb.

# İnformasiya savaşının sərkərdəsi!



## Prezident İlham Əliyevin müsahibələri Azərbaycanın haqlı mövqeyini dünyaya çatdırır...

**Bəşər tarixinin son onillikləri müharibələrlə doludur. Lakin heç bir dövlət başçısı həmin müharibə zamanı çoxlu sayda aparıcı KİV-in maraq dairəsinə düşməyib. Qətiyyətli, nüfuzlu siyasi rəhbərə və dövlət başçısına beynəlxalq marağın yüksək olması təbiidir. Bu marağın müharibə zamanı xüsusilə yüksək olması tam məntiqlidir. Bu baxımdan, Azərbaycan Prezidenti İlham Əliyevə müsahibə üçün dünyanın bir çox tanınmış media qurumlarının müraciət etməsi, məhz ilk növbədə, Azərbaycan Prezidentinin nüfuzlu lider olmasından irəli gəlir.**

Elə bu günlərdə Prezident İlham Əliyevin İspaniyanın EFE informasiya agentliyinə müsahibəsində dövlət başçısı bir sox məsələlər aydınlıq gətirərək ki, 30 illik danışıqlar prosesi ərzində Azərbaycanın mövqeyi çox konstruktiv olduğunu bir daha nümayiş etdirdi.

### "Status məsələsinə qayıtmaq mümkün deyil, status yoxdur və hər kəs bu məsələni unutmalıdır"

Prezident İlham Əliyev İspaniyanın EFE informasiya agentliyinə "Ermənistan üçün hələ Dağlıq Qarabağın statusu məsələsi var və keçmişdə Siz onlara qismən muxtariyyət kimi imkanlar təklif etmişdiniz. Bu, hələ də qüvvədədirmi, yoxsa artıq müzakirə predmeti deyil" sualına cavabında bildirib ki, artıq mövcud olmayan "qurumun" statusu haqqında danışmağın yeri yoxdur: "Səmimi desəm, son dövrdə biz Ermənistandan həmin ərazinin statusu ilə bağlı heç bir bəyanat eşitməmişik. Əfsuslar olsun ki, bu fikirlər bəzi digər ölkələr, onların yüksək səviyyəli nümayəndələri tərəfindən səslənir. Bizim mövqeyimizə gəldikdə, mən bunu dəfələrlə bildirmişəm. Demək olar ki, 30 illik danışıqlar prosesi ərzində Azərbaycanın mövqeyi çox konstruktiv olub".

Dövlət başçısı onu da bildirib ki, Azərbaycanda yaşayan ermənilərə müəyyən səviyyədə özünüidarəetmə verməyə hazır idik. Lakin bu mövqeyi Ermənistan tərəfi həmişə rədd etmişdir və onlar həmişə "Dağlıq Qarabağ" adlandırdıqları ərazi üçün müstəqillik tələb edirdilər: "Bu gün, müharibə bitəndən və münaqişə öz həllini tapdıqdan sonra bu, təkcə mənim mövqeyim deyil, bu, dünyanın, beynəlxalq ictimaiyyətin əksər hissəsinin mövqeyidir ki, artıq mövcud olmayan "qurumun" statusu haqqında danışmağın yeri yoxdur. Çünki Dağlıq Qarabağ mövcud deyil. Bizim ərazimizdə belə inzibati vahid yoxdur".

Azərbaycanın iqtisadi zonalarının yeni konfiqurasiyası ilə bağlı Fərman imzaladığını diqqətə çatdıran Prezident İlham Əliyev deyib: "Biz iki iqtisadi zona - Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonalarını yaratdıq və onlar bütün bu ərazini əhatə edir. Bu gün Rusiya sülhməramlılarının məsuliyyət daşıdığı ərazidə - Qarabağda yaşayan 25 minə yaxın etnik erməni bizim vətəndaşlardır. Onların fərqli dini və ya etnik mənşəyi olan istənilən digər Azərbaycan vətəndaşı kimi eyni hüquqları, imtiyazları və öhdəlikləri olacaq. Qısaca desək, status məsələsinə qayıtmaq mümkün deyil, status yoxdur və hər kəs bu məsələni unutmalıdır".

### "3+3" regional əməkdaşlıq platforması yaradılsa, bu, yeni düşmənçilik hərəkətlərinə qarşı əsas zəmanət olacaq"

"Biz "3+3" regional əməkdaşlıq platformasına dair Türkiyə Prezidentinin təklifini dəstəklədik. Ermənistan hələ ki, cavab verməyib. Görürsünüz, Ermənistan yenə də qeyri-konstruktiv mövqe sərgiləyir". Prezident İlham Əliyev bu barədə İspaniyanın EFE informasiya agentliyinə müsahibəsində bildirib. Dövlətimizin başçısı Türkiyənin təklif etdiyi əməkdaşlıq platformasının əhəmiyyətini şərh edərək deyib ki, bu, nəinki müharibədən sonrakı məsələlərə, eləcə də ümumiyyətlə, bizim bölgədə regional inkişafa xidmət edəcək: "Çünki əgər biz regionun altı ölkəsi arasında bu cür əməkdaşlıq formatını yaratmağa müvəffəq olsaq, bu, hər hansı yeni düşmənçilik hərəkətlərinə qarşı əsas zəmanət olacaq. Bu, regional əməkdaşlığın mühüm amilinə çevriləcək və çox fayda gətirəcək".

Prezident İlham Əliyev qeyd edib ki, təkcə kommunikasiyaların açılması sayəsində biz region ölkələri arasında dərhal ticarət dövriyyəsini artıra, on minlərlə iş yeri aça bilərik. "Bu, yalnız kommunikasiyaların açılması sayəsində olacaq. Bununla belə, qarşılıqlı ticarəti gücləndirsək, müsbət dinamikaya diqqət yetirsək, regionumuz gərginlik məkanından sabitlik və sülh regionuna çevriləcək".

### "Biz Türkiyə və Rusiyanın rolunu çox müsbət, sabitləşdirici rol kimi dəyərləndiririk"

Dövlət başçısı müsahibəsində müharibə zamanı qardaş Türkiyə dövlətinin lap başlanğıcdan dəstək verdiyini, müharibədən sonra da bu dəstəyi davam etdirdiklərini bildirib: "İndi isə, müharibə bitdikdən sonra Türkiyə, o cümlədən Rusiya gələcək regional inkişafda və sabitlikdə çox mühüm rol oynayırlar. Bildiyiniz kimi, Rusiya və Türkiyə Qarabağ bölgəsinin Ağdam rayonunda birgə monitorinq mərkəzini yaradıblar. Eyni zamanda, Rusiyanın sülhməramlıları erməni əhalinin yaşadığı yerlərdə sülhün mühafizəsi tədbirlərini görürlər. Beləliklə, artıq yeni reallıqlar yaranıb. Hər bir ölkə həmin reallıqları nəzərə almalıdır".

Azərbaycan ilə Ermənistan arasında güclər balansının hələ xeyli müddət əvvəl dəyişdiyini qeyd edən dövlətimizin başçısı deyib ki, biz öz potensialımızı, Ermənistanın potensialını bilirdik: "Ola bilsin, erməni hökuməti Azərbaycan qarşısında şanssız olduğunu, əraziləri dinc yolla boşaltmadığı təqdirdə ciddi çətinliklərlə üzləşəcəyini real şəkildə qiymətləndirə bilmədi".

Prezident İlham Əliyev bu barədə İspaniyanın EFE informasiya agentliyinə müsahibəsində bildirib və deyib ki, həmçinin bu yaxınlarda BMT Baş Assambleyasının sessiyası çərçivəsində Ermənistan və Azərbaycan xarici işlər nazirlərinin görüşü baş tutub: "Bu, müharibə bitəndən sonra birinci dəfə baş vermişdir. Bizim nazirin mənə verdiyi məlumata görə, hesab edirəm ki, görüş konstruktiv və ümidverici olmuşdur. Bizim mövqeyimiz müharibə bitəndən sonra dəyişməz olaraq qalır. Biz Ermənistanla hər iki ölkənin ərazi bütövlüyünün qarşılıqlı tanınması əsasında normal münasibətlər qurmaq istəyirik".

Dövlətimizin başçısı deyib ki, Azərbaycan dərhal sərhədlərin delimitasiyasına və bu proses bitəndən sonra demarkasiyasına başlamağa hazırdır: "Həmçinin biz gələcək sülh sazişi üzərində Ermənistanla işləməyə başlamağa hazır olduğumuzu bildirmişik. Bütün bu təşəbbüslər tərəfimdən və digər Azərbaycan rəsmiləri tərəfindən dəfələrlə vurğulanmışdır. Lakin əfsuslar olsun ki, Ermənistan hələ də buna müsbət cavab verməyib. Beləliklə, bizim mövqeyimiz dəyişməz olaraq qalır və bəzi addımlar var, lakin hesab edirəm ki, biz bu il ərzində daha çox irəliləyişə nail ola bilərdik".

### "Ermənistan bizə minaların dəqiq xəritələrini təqdim etsə, xoş niyyət nümayiş etdirsə, biz buna adekvat cavab verəcəyik"

Ermənistan və bəziləri tərəfindən "müharibə əsirləri" adlandırılan bu adamların işğaldan azad olunmuş ərazilərə noyabrın sonunda - müharibənin başa çatmasından və Ermənistanın kapitulyasiya aktını imzalamasından iki həftə sonra göndərildiyini qeyd edən dövlətimizin başçısı onların törətdiyi cinayətlər barədə məlumat verib və deyib: "Buna baxmayaraq, biz bu müddət ərzində onların bəzilərini geri qaytardıq ki, bu da xoş məramın göstəricisi idi".

Prezident İlham Əliyev müsahibəsində Ermənistan tərəfindən işğal altında olmuş keçmiş ərazilərdə basdırılmış minaların xəritələri məsələsindən də danışaraq bildirib ki, ilkin olaraq, minalanmış ərazilərin xəritələri tərəfimizdən tələb edildikdə, Ermənistan hökuməti ən yüksək səviyyədə bəyan edirdi ki, onlarda belə xəritələr yoxdur: "Müharibə bitdiyi bir ilə yaxın dövrdə Ermənistanın xəritələri bizə verməməsi nəticəsində mülki vətəndaş və hərbçilərimiz arasında 150 nəfər həlak olmuş və ya ağır yaralanmışdır. Bu yaxınlarda bəzi xəritələr təqdim edilib, lakin həmin xəritələrin dəqiqliyi yalnız 25 faizdir. Beləliklə, bizim tələbimiz ondan ibarətdir ki, Ermənistan bizə dəqiq xəritələr təqdim etsin".

"Bunu etsələr, xoş niyyət nümayiş etdirsələr, biz buna adekvat cavab verəcəyik", - deyə dövlətimizin başçısı vurğulayıb.

### "Pilot layihə olan kənd bu ilin sonuna və ya gələn ilin əvvəlinə ilk sakinləri qəbul edə biləcək"

"Mülki əhalinin işğaldan azad olunan ərazilərə qayıtmasında ilk maneə minalardır. Ərazilər minalardan təmizlənməyincə biz insanları geri qaytara, həyatlarını təhlükə altında qoya bilmərik. Biz minalardan təmizləmə işini özümüz həyata keçiririk. Biz Minatəmizləmə Agentliyimizin heyətini artırmışıq. Bu prosesdə iştirak edən hərbçilərimizin də sayı artırılıb. Lakin bu, vaxt tələb edir", - deyən Azərbaycan Prezidenti onu da vurğulayıb ki, minaların təmizləndiyi yerlərdə qəsəbələrin, şəhərlərin və kəndlərin tikintisinə başlanılmışdır: "Birinci gördüyümüz iş tələbatların və infrastrukturun tam nəzərdən keçirilməsi oldu. Elektrik enerjisi infrastrukturu bu ilin sonuna, yəni bir neçə aydan sonra tam hazır olacaq. Eyni zamanda, yollara və su təchizatına aid olan məsələlər də vacibdir. Biz artıq bir neçə ay əvvəl pilot layihə olaraq kəndlərdən birinə sərmayə qoymağa başlamışıq və ola bilsin, bu ilin sonuna və ya gələn ilin əvvəlinə həmin kənd ilk sakinləri qəbul edə biləcək. Bu proses artıq gedir. Bütün şəhərlər üçün baş planlar hazırlayırıq. Sonra isə kəndlər üçün bunu edəcəyik. Azad olunmuş ərazilərin yenidən qurulmasına yalnız bu il üçün 1 milyard 300 milyon dollar həcmində vəsait ayırmışıq".

Mülki əhalinin işğaldan azad olunan ərazilərə qayıtmasının dəqiq vaxtını söyləməyin çətin olduğunu vurğulayan Prezident qeyd edib ki, proses mərhələli şəkildə başlayacaq. Bir sözlə, dövlət başçımızın həm hərb meydanında, həm də informasiya savaşında bu nüfuzun qazanılması qalib ölkənin informasiya savaşının sərkərdəsi - Prezident İlham Əliyevin apardığı uğurlu xarici siyasətin nəticəsidir. Ən əsası isə, informasiyalarda diqqətə çatdırılır ki, sülh, sabitlik və inkişaf tərəfdarı olan Azərbaycan mehriban qonşuluq münasibətləri üçün bütün səylərini israrla davam etdirir.

**RƏFİQƏ KAMALQIZI**

# Qarabağ zəfəri Azərbaycanın əbədi qürur mənbəyidir

**YAP Veteranlar Şurasının sədri Arif Rəhimzadənin yap.org.az-a müsahibəsi**



**- Hörmətli Arif müəllim, bu gün Azərbaycan xalqı tarixinin ən qürurlu hadisəsini, İkinci Qarabağ müharibəsində özünün möhtəşəm qələbəsini qeyd edir. Bu haqqda nə deyə bilərsiniz?**

- Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə aparılan 44 günlük Qarabağ müharibəsi xalqımızın çoxəsrlik tarixində, şüurunda ən möhtəşəm qələbə kimi həkk olundu. Qələbə xalqımızı öz gözündə və beynəlxalq aləmin təsəvvüründə bir daha ucaltdı. Azərbaycanlıların özlərinə və xalqın prezidentinə olan inamını yüksəltdi, rəhbər-xalq birliyini daha da möhkəmləndirdi. Qələbə cəmiyyətin bugünkü və gələcək inkişafına həlledici bir amil kimi daxil oldu.

**- İkinci Qarabağ müharibəsi 2020-ci ilin sentyabrın 27-də başladı və 2020-ci ilin noyabrın 10-da möhtəşəm qələbə ilə tamamlandı. Demək olarmı ki, qələbə 44 günün məhsuludur və bununla əlaqədar ikinci sual – qələbəni hansı amillər mümkün elədi?**

- Bəli, müharibə 44 gün çəkdi. Lakin Prezidentin uzaqgörənliyi, hər bir atılan addımın təsirini əvvəlcədən duyması, onlardan ölkə üçün ən optimal variantını seçməsi və həyata keçirilməsi nəticəsində müharibə bu müddətdə tamamlanmadı. Əlbəttə torpaqlarımızı azad etmək cəhdi Ermənistanın ölkəmizə qarşı təcavüzünün ilk günlərindən mövcud idi. Bu cəhdlərin nə qədər səmərəli olmasını yaşlı nəsil yaxşı bilir. Bu nöqteyi-nəzərdən demək olar ki, İkinci Qarabağ müharibəsinin Qələbə məhsulu uzun illər ərzində yetişdi. Ancaq Azərbaycanın qələbəyə hazırlıq prosesi sözün əsl mənasında Heydər Əliyevin hakimiyyətə gəldikdən sonra daha dəqiq desək 1994-cü ildən sonra başladı.

Heydər Əliyevin dövründə Azərbaycanın dövlətçiliyinin möhkəmləndirilməsi, ordunun və müvafiq dövlət strukturlarının yaradılması və işinin təşkili, iqtisadiyyatın inkişafı inamla həyata keçirildi. Bu fundamentin üzərində son 18 ildə İlham Əliyev hakimiyyətə gələndən sonra iqtisadiyyat yeni, daha yüksək səviyyəyə qaldırıldı. Azərbaycan ordusu maddi-texniki təchizatına, hərbçilərin bilik səviyyəsinə və peşəkarlığına görə dünyanın ən müasir Silahlı Qüvvələrindən biri kimi tanındı.

Azərbaycan ordusunun 44 günlük müharibəsi bir çox ölkələr üçün nümunə kimi təhlil olunur və öyrənilir. Xarici ekspertlərin məlumatlarına görə, hərbçilərimizin yüksək peşəkarlığı, müasir texnika və texnologiyalarla təchizatı imkan verir ki, Ermənistanın bütün ərazisini daima müşahidə altında saxlasın və istənilən nöqtəsini məhv etsin.

Bizim böyük üstünlüklərimizdən biri o idi ki, xalq öz dədə-baba torpağını azad etməkdən ötrü müharibə aparırdı. Minlərlə gənc azərbaycanlı könüllü şəkildə hərbi komissarlıqlarda qeydiyyatdan keçib müharibədə iştirak etmək istəyi ilə müraciət etmişdi. Müharibə dövründə bir nəfər də olsun hərbçimiz ordu sıralarından yayınmadı. Halbuki Ermənistan ordusunda 10 minə yaxın fərari hərbi texnikanı, istehkamları qoyub qaçmaqla canlarını qurtarırdılar.

Xüsusi təyinatlı bölmələrimizin Şuşa şəhərini azad etməsi bir çoxları üçün xüsusən Ermənistan tərəfi üçün gözlənilməz bir möcüzəyə çevrildi və kapitulyasiya sənədinə imza atmağı məcbur etdi.

Müharibə dövründə və ondan əvvəlki müddət ərzində diplomatiyada və beynəlxalq aləmdə də qələbə əldə olundu. Azərbaycan və onun rəhbərləri beynəlxalq aləmdə yüksək nüfuz qazandılar. Azərbaycan BMT-nin Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçildi, Azərbaycan Prezidenti İlham Əliyevin Qoşulmama Hərəkatının sədri kimi beynəlxalq aləmdə böyük nüfuz sahibidir. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva İSESCO və YUNESCO-nun xoşməramlı səfiri simasında fəaliyyət göstərir. Azərbaycan həqiqətlərini dünyaya çatdırmaqdan ötrü ölkəmizdə bir çox beynəlxalq forumlar, konfranslar keçirilib.

Müharibə dövründə Prezident İlham Əliyev xarici media nümayəndələrinə və bəzi hallarda Azərbaycana qarşı qeyri-obyektiv mövqe tutan media nümayəndələrinə 30-dan çox verdiyi müsahibələrində Azərbaycan gerçəkliklərini, ədalətli mövqeyini dünya ictimaiyyətinə çatdırmışdır. İlham Əliyev tək ordunun Ali Baş Komandanı yox, diplomatiya sahəsində də dünyada ictimai rəyin formalaşdırılması mübarizəsinə rəhbərlik edib və edir. Bunun nəticəsidir ki, hətta Azərbaycana qarşı qeyri-obyektiv mövqe tutan və Ermənistanın aqressiv siyasətini müdafiə edən ATƏT-in Minsk qrupunun bir üzvü artıq niyyətindən çəkinir.

Bu qələbənin gerçəkləşməsində Türkiyənin və Pakistanın mənəvi və texniki dəstəyini xüsusi qeyd etməliyik.

**- Demək olarmı ki, bununla Zəfərimiz tamamlandı?**

- Bu gün biz Qarabağ müharibəsində Azərbaycanın mübaliğəsiz qələbəsini qeyd edirik. Lakin bununla Zəfərimiz tamamlanmır. O, bizim həyatımızı hər zaman müşahidə edəcək. Qarşımızda üçtərəfli sazişdə nəzərdə tutulan məsələlərin tam həlli durur. Azərbaycanın Naxçıvan və Türkiyə ilə kommunikasiya xətlərinin yaradılması gündəliyin ən vacib məsələlərindən biridir.

Azad olunmuş ərazilərdə həyata qayıdış istiqamətində böyük işlər aparılır. Cənab Prezidentin Sərəncamlarına əsasən "Ağıllı" yaşayış məntəqələrinin yaradılması, əhalinin ora qayıtması, Qarabağı Azərbaycanın davamlı inkişaf edən regionlarından birinə çevirmək qarşıda durur. Bu istiqamətdə artıq böyük işlər aparılıb və davam etməkdədir, yollar çəkilir, Füzulidə hava limanı tikilib, Şuşa bərpa edilir və Azərbaycanın mədəniyyət mərkəzinə çevrilir. Bu gün dövlətimiz tərəfindən işğaldan azad edilmiş ərazilərimizdə infrastruktur layihələri icra olunur. Erməni vəhşiliyinin qurbanı olan şəhərlərimiz, qəsəbələrimiz və kəndlərimiz əvvəlki görkəmindən də gözəl görünüşə malik olacaqdır. İndi azadlığına qovuşan ata-baba yurdlarımızda azan səsi ucalır, şanlı üçrəngli bayrağımız dalğalanır.

44 günlük müharibədə hər bir rayonumuzun, şəhər və kəndimizin azad olunması müasir tariximizin qəhrəmanlıq səhifəsidir. Qarabağın qəlbi Şuşanın erməni tapdağından xilas edilməsi isə bu müqəddəs savaşın zirvəsi, ən böyük hadisəsi, Azərbaycanın mühüm strateji qələbəsi oldu.

Biz əbədi və əzəli torpaqlarımızı yağı düşməndən azad etməyə müvəffəq olduğumuza görə xoşbəxt xalqıq. Qarabağdakı möhtəşəm qələbə isə Azərbaycana başucalığı gətirib. Bu zəfər xalqımızın tarixinə qızıl hərflərlə həkk olunub. Sözsüz ki, bu böyük səadəti bizə müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun igid əsgər və zabitləri bəxş etmişdir. Bu zəfər, həmçinin, Azərbaycan xalqının sarsılmaz birliyi sayəsində mümkün olmuşdur. Xalqımız Qarabağın azad olunması zamanı göstərdiyi sarsılmaz birliyini düşməndən azad edilmiş torpaqlarımızın bərpası və dirçəldilməsi prosesində də nümayiş etdirəcək.

# "SƏS" qəzeti daha bir yeniliyə imza atdı!

Azərbaycanın müstəqil mətbuatında özünəməxsus yeri və rolu olan "SƏS" qəzeti müasir dünyamızın tələbləri ilə ayaqlaşmaqda və tərəqqi yolunu tutmaqda davam edir. Belə ki, qəzetimiz artıq

**Yeni dizaynla və rəngli formatda**


Gəncədə Ümumrespublika "Xəmsə" Festivalının bağlanış mərasimi keçirilib
Səhifə 8
İlham Əliyev:
Bundan sonra qalib xalq və müzəffər ölkə kimi əbədi yaşayacağıq!
Prezident İlham Əliyev oktyabrın 3-də Tərtər və Bərdə rayonlarında səfərdə olub
SƏS
№ 180 (6380) 5 oktyabr 2021-ci il. Qiyməti 40 qəpik
"Təsadüfi deyil ki, Ermənistan ordusunda on mindən çox fərari olmuşdur. Onlar gördülər ki, bizim qabağımızda dura bilmirlər. Gördülər ki, onların hakimiyyəti onlara yalan danışır, onları ölümə göndərir"
Səhifə 4
Müəllim ustad, öyrədən, həyata vəsiqə verəndir
11
İspandilli mətbuat Azərbaycan Prezidentinin İspaniyanın EFE informasiya agentliyinə müsahibəsini geniş işıqlandırır
Səhifə 3
Fəth etdiyi zirvə ilə ölümsüzlüyə qovuşan Qoşqar Ömərov
12
Mahir Emreli: "Tək düşüncəm çempionluqdur"
Səhifə 16
Cindən yeni "müjdə" "X" virusu gəlir
16
Gənclər narkomaniya tələsinə necə düşür
YAP Quba rayon təşkilatı tərəfindən Əfsan Sabyevin xatirəsi anıldı
13
Bax 14
Ayətullah Xomeyninin amerikalılarla gizli sövdələşmələri üzə çıxıb
Bax 10
Milli Qəhrəman Yuriy Kovalyovun büstünün açılışı mərasimi olub
Bax 16
Kosmetik məhsullarda olan spirt dərini qurudur
Bakıda böyük əməliyyat: Görün, kimlər tutulub
Bakıda "Beynəlxalq Kitab Sərgisi" keçirilir
Ətimizin yiyəsi
15
Mourinyo "Roma"da rekord qırır...
16

oxucularının qarşısına rəngli formatda çıxaraq, dizayn üslubunu daha da genişləndirib. Nəfis tərtibatı ilə diqqət çəkən qəzet yenilənmiş manşeti ilə yanaşı, həm də oxucu auditoriyasının maraqlarına cavab verən sosial araşdırmaları, siyasi-analitik yazıları, iqtisadi təhlilləri, idman xəbərləri və s. sahələri əhatə edən şərhləri, fotosüjetləri ilə də öz inkişaf yolunu uğurla davam etdirməkdədir.

Onu da qeyd edək ki, "SƏS" qəzeti bir müddət əvvəl ölkə mediasında daha bir ilkə də imza atıb. Belə ki, qəzetin oxucuları bir sıra informasiyaları videogörüntü vasitəsi ilə izləmək imkanını əldə ediblər. Videoxəbərləri izləmək üçün android sistemli telefonlara və smartfonlara QR Code Reader skine proqramından istifadə edilir.

Yeniliklə bağlı "SƏS" Media Qrupunun rəhbəri, qəzetin baş redaktoru Bəhruz Quliyev də bildirib ki, müasir texnologiyalar dövründə bütün sahələrdə olduğu kimi, qəzetçilik sahəsində də yeniliklərə, kreativliklərə ehtiyac duyulur və növbəti addım da bu reallıqları ehtiva edir. Baş redaktor bu yeniliyi müasir və müstəqil Azərbaycan mətbuatının ardıcıl uğurlarından biri kimi dəyərləndirib. Onun sözlərinə görə, dövlətin diqqət və qayğısının nəticəsidir ki, artıq çap mediası da öz rentabelli tərəqqisini əldə etmək imkanlarını qazanmaqdadır.

Xatırladaq ki, "SƏS" qəzetinin balansında "SƏS" İnformasiya Agentliyi, qəzetin PDF formatı, eləcə də "SƏS" İnternet Televiziyası fəaliyyət göstərir. Qeyd etmək yerinə düşərdi ki, internet TV-nin də ilk olaraq bu media qurumunda fəaliyyətə başlaması zamanında ilklərdən olub.

Ulu Öndər Heydər Əliyev "SƏS" qəzeti haqqında vurğulamışdır: "SƏS" qəzeti bizim partiyanın tarixində ən mötəbər yer qazanmış bir qəzetdir. Görürəm ki, son vaxtlar özünün xüsusiyyətlərini itirmədən modernləşir, yaxşılaşır. Arzu edirəm ki, daha da modernləşsin və yaxşılaşsın".

Ulu Öndərimizin tarixi kəlamları "SƏS"çilər üçün bir kredo kimi götürülüb və hər zaman yeniləşmə, modernləşmə yolunu tutmaqla müasir mətbuatımızda özünəməxsus uğurları ilə tərəqqi edir.

O cümlədən, Prezident İlham Əliyevin "SƏS" qəzetinin yaranmasının 20-ci ildönümü ilə bağlı qəzet kollektivinə göndərdiyi təbrik məktubunda vurğuladığı fikirləri fəaliyyətimizə sonsuz stimul verməkdədir. "İnanıram ki, fəaliyyət göstərdiyi bütün dövrlərdə öz amallarına sadiq qalmış "Səs" qəzetinin kollektivi bundan sonra da həqiqət carçısı olacaq, ictimai maraqların, milli dövlətçilik mənafelərinin qorunmasında yüksək peşəkarlıq və prinsipiallıq göstərərək, xalqımızın mütərəqqi mətbuat ənənələrini layiqincə davam etdirəcəkdir.

Bir daha qəzetin bütün kollektivini yubiley münasibətilə təbrik edir və yeni yaradıcılıq uğurları arzulayıram", deyə Dövlətimizin Başçısı qəzetimizin yubileyi münasibəti ilə vurğulamışdır. Qarşıda isə bizi növbəti kreativ ideyalarımız, modern tələblərə cavab verəcək standartlarımız ilə öz çoxsaylı oxucularımızı, daimi auditoriyamızı sevindirməyə davam edəcəyik.

*"SƏS" qəzetinin kollektivi*

# "Xarı bülbül" abidəsi inşa edilib




2020-ci il dövlətçilik tariximizə qızıl hərflərlə yazıldı, Zəfər ili kimi həkk olundu. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuz işğalçı Ermənistan üzərində möhtəşəm Qələbə qazandı, xalqımızın 30 illik həsrətinə son qoyuldu. Ali Baş Komandanımızın düşünülmüş strategiyası, siyasi iradəsi və qətiyyəti sayəsində ordu ilə xalqın sarsılmaz birliyi təmin olunaraq qazanılan tarixi Zəfərdən sonra qərinələr keçəcək, illər ötəcək, tarix isə bu şanlı Qələbəni xalqımızın taleyinin ən parlaq səhifəsi kimi heç vaxt unutmayacaq.

44 günlük Zəfər tarixindən sonra bu qələbəyə QHT-lər, idmançılar, yazıçılar və s. tərəfindən öz qatqısını əlavə edənlər də az deyil. Onlardan biri də Əməkdar Bədən Tərbiyyəsi və İdman xadimi, Ashihara Karate Federasiyasının Prezidenti Maarif Bağırovun gördüyü işlərdir. Onun gördüyü işləri saymaqla bitirmək olmaz. Həmin görülən işlərdən biri də Ashihara Karate Federasiyasının yerləşdiyi ərazidə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 gün ərzində Dağlıq Qarabağda erməni işğalçılarına qarşı əldə edilən qələbə münasibətilə Federasiyanın yanında Qarabağ şəhidlərinin xatirəsinə "Xarı bülbül" abidəsinin inşa edilməsidir.

Federasiyanın prezidenti bildirib ki, 2002-ci ildən Dünya çempionatlarında iştirak edilir və burada da Azərbaycan layiqincə təmsil olunur. Qeyd edək ki, abidənin inşası 27.09.2021-ci il tarixində başa çatıb. Azərbaycan Ashihara Karate Federasiyası Bakı şəhəri Səməd Vurğun küçəsi (Zabitlər bağı) 75 saylı binada yerləşir. 1998-ci ildə Ədliyyə Nazirliyində qeydiyyatdan keçib.

# Evlilər daha çox xoşbəxtdir, yoxsa subaylar



Müəyyən bir yaşa çatmış insanların hələ də subay qalması cəmiyyət tərəfindən yaxşı qarşılanmır. Bu son dərəcə yanlış bir fikirdir. Bir insanın öz təbiətinə uyğun birini tapa bilməməsi olduqca təbiidir. Bəs, subay və evli olmağın nə kimi üstünlükləri var? Sizin üçün subay olmağın 8 faydasını topladıq.

**1**. Daha aktiv sosial həyat

Subay olmaq insanın dostları ilə rahat əylənməsini asanlaşdırır. Ancaq



bu vəziyyət evləndikdən sonra dəyişir. Məsuliyyətlərin artırılması isə yorucu ola bilər.

**2. Daha çox idman edə bilərsiniz**

Subay insanlar evləndikdən sonra gündəlik hobbilərini etmirlər. Bunun ən



böyük səbəbi evləndikdən sonra boş vaxtın məhdudlaşdırılmasıdır. Hətta qarşı tərəfin idman etməməyinizi istəməsi də mümkündür.

**3. Maddi cəhətdən rahatlıq**

Subay olanda rahatlıqla pul xərclədiyiz şeyləri evli olarkən edə bilmirsiniz.



Yalnız özünüzü düşündüyünüz eqoist xərclər evli olarkən qadağandır.

**4. Tək qalmaqdan qorxmamağı öyrənmək**

İnsanların çoxu təkliyə nifrət edir. Yalnız insanlar depressiyaya düşür,



bədbəxt və narahat olurlar. Əlbəttə ki, bu vəziyyət tək olmasa da tənhalığa meylli insanlar üçündür. Həmişə tək olsaydın nə olardı? Bu sizə təsir edəcəkmi? Əvvəldən subay idinizsə, birinin yoxluğu sizi heç vaxt üzə bilməz.

**5. Məsuliyyətlərin azalması**

Subay adamın yeganə məsuliyyəti özüdür. Evli olsaydın nə olardı? Bəs



həyat yoldaşınız və uşaqlarınızın birlikdə məsuliyyətini daşımaq? Daha çətin olmazmı?

**6. Yuxusuzluq problemlərinin aradan qaldırılması**

Bekarlığın sultanlıq olduğunu söyləyirlər. Subay insanlar ümumiyyətlə daha



rahatdırlar. Sadə dillə desək, subayların səhər yatmaq şansı daha çoxdur. Evli olduqda isə bunu etmək olduqca çətindir.

**7. Heç kimlə haqq-hesab etməmək**

Əgər subaysınızsa və həyatınızda



heç kim yoxdursa, bir yerə gedəndə heç kimə cavab vermək məcburiyyətində deyilsiniz. Ancaq qısqanc bir həyat yoldaşınız olsaydı, atdığınız hər addım üçün hesab verməli olacaqsınız.

**8. Problemlərin öhdəsindən gəlməyi öyrənmək**

Tək yaşayan bir adam problemlərini təkbaşına həll etməlidir. Ən azından bunu necə həll etməyi öyrənə bilər. Ailə



həyatında belə olmur, bir problemi ailə üzvlərinin köməyi ilə həll etmək çox fərqlidir. Şəxsin özünə güvənməsi və problemləri təkbaşına həll etməsi daha müsbət bir üsuldur.

Gənclər arasında evlənmək fikri son vaxtlar cəfəngiyat kimi qəbul edilə bilər. Ancaq evliliyin də həyatınız üçün bir sıra üstünlükləri var.

**1.** Evlilik mənəvi dəyərlərinizi yüksəldir

Ailə qurmaq subay həyatınızdakı bəzi hərəkətlərə son qoymaqla sizi daha etik bir insan edir.

**2.** Daha sağlam düşüncəyə sahib olursunuz

Etdiyiniz iş üçün məntiqinizi istifadə etməli olduğunuz kimi sağlam düşüncəyə sahib olub ailənizi də düşünməlisiniz.

**3.** Ana və ata olmaq xoşbəxtliyini yaşamaq şansınız var

Bunun yaşanacaq ən gözəl hiss ol-



duğu deyilir.

**4.** Daha çox pul qazanırsınız

Hamı subay insanların daha az pul xərclədikləri üçün daha çox pul qazanacaqlarını düşünür. Ancaq evli insanlar məsuliyyətləri üçün çox çalışırlar və daha çox yüksəliş əldə edirlər.

**5.** Tək ölməyəcəksiniz

Evli birisinizsə, tək qalmaq mümkün deyil. Sevdikləriniz həmişə yanınızda olacaq.

**6.** Sağlam qidalanacaqsınız

Xüsusilə yaxşı yemək bişirən bir xa-



nımınız varsa. Əgər yoxdursa özünüz yaxşı yemək bişirin.

**7.** Həmişə yanınızda sizi başa düşən biri olacaq

Evli birisənsə, səni ən yaxşı tanıyan adam həyat yoldaşındır.

**8.** Yalnız olmayacaqsınız

Yalnızlıq pisdir. Bir -birini sevən və tamamlayan iki insan həyat yolunda ən böyük dəstəkçiləri olur.

**9.** Ümumiyyətlə xoşbəxt bir insan olacaqsınız

Əlbəttə ki, xoşbəxt bir evliliyiniz olsa bu mümkündür. Axşam işdən qayıdanda isti bir ailə mühitinə girəcəyinizi bilmək sizi xoşbəxt edir.

**10.** Daimi emosional dəstəyiniz var

Ən pis vəziyyətlərdə belə, o adam sənin yanındadır.

**11.** Özünə inamınızı artırır

Verdiyiniz qərarlar yalnız sizə deyil, qurduğunuz ailəyə də təsir edəcəyi üçün daha cəsarətli qərarlar qəbul edə biləcəksiniz.

**12.** Eqoist ola bilməzsən

Evlilik eqoist hərəkətlərin qarşısını alır. Bütün məsələlərdə daha yaxşı qərarlar verəcəksiniz.

**13.** Evli insanların subaylara nisbətən xərçəng riski daha aşağıdır

Düzgün və sağlam həyat xərçəngin ən güclü qarşısını alan şeylərdən biridir.

**14.** İşinizdə daha sürətli yüksəlirsiniz

Çünki ailənizin qayğısına qalmaq və onların rahat yaşaması üçün daha yaxşı qazanmalısınız. Bunun üçün də çox çalışırsan.

**15.** Ömrünüz artacaq

Evlilik sağlam və xoşbəxt bir həyat deməkdir. Evli insanlar subaylardan daha uzun yaşayır.

Əlbəttə ki, hər bir evliliyin öz şərtləri və xüsusiyyətləri var. Evlilik barmaq izinin bənzərsizliyi kimi bənzərsiz və özünəməxsusdur. Bundan əlavə, uğurlu və xoşbəxt evliliklərə baxdığımızda, deməli olar ki, hamısının ortaq məxrəcdə qarşılaşdığı bəzi xüsusiyyətlərlə qarşılaşırıq.

Evlilikdə, əlaqələrin möhkəm olması üçün hər iki tərəf də üzərinə düşəni etməlidir. Bədbəxtliyin hökm sürdüyü evliliklərə baxdığımızda, cütlükərin öz davranışlarına görə məsuliyyət daşımaqdansa, qarşı tərəfi daim günahlandırdıqları və tənqid etdikləri müşahidə olunur. Qınamaq və tənqid etmək böyük insan eqosuna aid olan davranış deyil. Uşaq eqosu olan bir şəxs, etdiyi hərəkətlərə görə məsuliyyət daşımaqdan çəkinir və günahı həmişə qarşı tərəfə atır. Yetkin insan eqosu, əlaqəyə əsaslanaraq öz töhfələrini soruşur və məsuliyyət daşıyır. Bir problem varsa, nə günahlandırır, nə də çəkinir, əksinə bir həll tapmağa gedir.

Xoşbəxt bir evliliyin ilk şərti: hər iki tərəf yetkin eqo səviyyəsində olmalıdır. Uşaq eqolu insan səviyyəsində ilişib qalan və ibtidai müdafiə mexanizmlərindən istifadə edən şəxslər, evliliklərini xaosa çevirmək üçün əllərindən gələni əsirgəmir.

Evliliyin və insan münasibətlərinin əsası sevgi, hörmət və güvən bağıdır. Bu bağlar da evliliyin əsas ehtiyaclarıdır. Kişi üçün evə çörək gətirməkdənsə, evdə güvən mühiti yaratmaq daha vacibdir. Evdə isti bir atmosferin yaranması hər iki tərəfin dəyərli hiss etməsinə səbəb olur. Evlilik müalicəsinə gələn qadınların əhəmiyyətli şikayətlərindən biri də "evimdəki əşyalardan heç bir fərqim yoxdur, evimdə dəyərli deyiləm" dir. Özünü bu qədər dəyərsiz hiss edən insan evliliyi idarə edə bilməz. Bu baxımdan, ləyaqət hissi evlilikdəki əsas ehtiyaclardan biridir.

Evlilikdə yaxınlıq və həmrəylik hissi də ön plandadır. "Mənə kömək oluna bilər, qayğı göstərilə bilər, çətinlik çəkəndə, xəstələnəndə və ya zəif olanda tək deyiləm" düşüncəsi qadınların özlərini təhlükəsiz hiss etməsinə şərait yaradır. Bundan əlavə, məsuliyyət hissi evlilikdəki problemləri həll etməyə kömək edir.

Cütlüklər evlilikdə layiqli olmaq, özünü təhlükəsiz hiss etmək, paylaşmaq və məsuliyyət daşımaq kimi əsas ehtiyaclarını dərk etməlidirlər. Çünki evlilik təkcə eyni mühiti paylaşmaq deyil, eyni hissləri paylaşmaqdır. Evlilikdə həm fiziki, həm də psixoloji birlik var, fiziki ünsiyyət kimi psixoloji ünsiyyət də var. Bütün dünyanı birlikdə gəzsələr də, fiziki cəhətdən çox yaxın olsalar da, bir -birindən bir o qədər çox uzaqdırlar. Birinin zövqü, xəyalları və düşüncələri digərindən başqadır. Evliliyi bir evlilik halına gətirən şey fiziki birlikdən çox psixoloji haldır. Psixoloji birlik insanların bir -birinə deyil, eyni nöqtəyə və eyni məqsədə baxması deməkdir. Bu şüur ər -arvadın üzərində qərarlaşarsa, evlilik yüksək keyfiyyətli və uzunömürlü ola bilər.

SİA məsələ ilə bağlı araşdırma apararaq psixoloq, sosioloq və ekspertlərin rəylərini öyrənib:



**Psixoloq Mahuxanım Teymurova:** "Kimisi subay olarkən xoşbəxtdir, kimisə isə evli olarkən. Buna veriləcək cavab insandan-insana və xoşbəxt olduğun aspektlərə görə dəyişir. Kimisi əyləncəni sevir və əylənərkən xoşbəxtdir. Bu da subay olarkən onun üçün mümkündür deyə subaylığı seçir. Kimisi isə ailə,ev həyatında özünü xoşbəxt hiss edir.

**Subay olanda:**

**1.** Azadsınız. Fədakarlıq etmək məcburiyyətində qalmazsınız. İstədiyinizi edə bilərsiniz.

**2.** Maddi baxımdan sadəcə özünüzə baxırsınız.

**3.** Özünüzə, dostlarınıza, ailənizə daha çox zaman ayıra bilirsiniz

**Bununla yanaşı:**

**1.** Özünüzü tənha hiss edə bilərsiniz

**2.** Başqa birinin sizi sevməyini, sizə qayğı göstərməyini istəyə bilərsiniz

Evli olarkən isə həyatını başqa biri ilə bölüşürsünüz. Artıq hər şeyi iki nəfər olaraq düşünürsünüz. Məsuliyyətləriniz daha da artır.

Əlbəttə ki, subaylıqda da, evlilikdə də insanın psixoloji vəziyyətindən çox şey asılıdır.

Evlənmək istəməyənlər isə ola bilər ki, əlavə məsuliyyət almaq istəməsin. Bu insanın evliliyə baxış bucağından asılıdır. Birinci özünə sual verməlidir ki, "niyə ailə həyatı qurmaq istəmirəm?"



**Sağlam Cəmiyyət Hərəkatının sədri, sosioloq Lalə Mehralı:** "Məncə, evlilik və subaylıq avantaj və ya dezavantajlarla qiymətləndirilməməlidir. İnsan var ki subaydır, amma özünü dünyanın ən bədbəxt insanı hesab edir. İnsan var ki, evlidir özünü dünyada ən xoşbəxt hesab edir.

Evliləri elə qələmə verirlər ki, hazırki cəmiyyətdə sanki problemin içində boğulur ki, ailə onun boynunda yükdür, övladlarının dünyaya gəlməsinə, evlənməsinə peşmandır. Bunu niyə belə qələmə verirlər, burası biraz müəmmalıdır. Subaylıq yaşını ümumiyyətlə uzadırlar, hazırda gənclərimiz 30 yaşlarda evlənir. Söhbət oğlanlardan gedir. Qızlarımız 25 yaşdan tez evlənmir. Subaylıq müddətinin yaşını uzadırlar, gəncləri evlilik üçün həvəsdən salırlar. Ailə institutunu özülünü belə qazıyırlar. Bu yollarla demoqrafik artıma mane olmağa çalışırlar. Ümumilikdə, avantaj-dezavantaj evli və ya subay olmaqla əlaqələndirilməməlidir. Bu insanın şəxsi keyfiyyətlərinə, həyat standartlarına, yaşam səviyyəsinə uyğun olan nəsnələrdir. Subay olub dünyanın sultanı olmaq və yaxud da ki, evli olub dünyanın yükünü çiynində gəzdirmək söz mövzusu belə olmamalıdır. Beş uşağı olan özlərini dünyanın ən xoşbəxt ailəsi hesab edən ailələr var. Tutalım, subaylar var ki, özünü bədbəxt hesab edir, subaylıq sultanlıq, xoşbəxtlik demək deyil hər zaman, evlilik də yük, artıq problemlər demək deyil. Bunların ümumiyyətlə bir-birindən avantaj və ya dezavantaj kimi müqayisə etməyin özünü doğru hesab etmirəm".

*Ayşən Vəli*



# Çörək yeyək, yoxsa yeməyək?

## Sağlam qida mütəxəssisindən XƏBƏRDARLIQ!

**Sağlam qidalanma mütəxəssisi Məhsəti Hüseynovanın SİA-ya müsahibəsini təqdim edirik:**

**- Suyu necə qəbul etməliyik? İsti, soyuq, ılıq və yaxud da qaynadılmış şəkildə, yəni necə olmalıdır?**

- Su orqanizm üçün çox vacibdir və gün ərzində digər mayeləri saymadan, su qəbul etməliyik. Hər kiloqram bədən çəkisinə görə 30 ml suyun qəbulu normal sayılır. Yəni, bu, ən normal qədərdir.

Ümumiyyətlə isə, ən ideal su otaq temperaturunda olandır. Bu şəkildə qəbul etsək, orqanizmə heç bir ziyan vurmaz. Ancaq soyuq şəkildə qəbul ediriksə, dişlərimizdən tutmuş, qida borusu və mədəyə qədər zərər vermiş oluruq. Həddindən artıq soyuq su dişin minasını zədələyir və bir müddət sonra çatlar əmələ gəlir. Bu da ağrılara səbəb olacaq. Həmçinin, iltihablaşmanın da məncəyi, məhz soyuq sudur.

**- Şəhərimizdə əksəriyyətimiz bina evində yaşayırıq və binanın da su anbarı var. Su bu anbara yığılır və sonra biz ondan istifadə edirik. Bunun nə kimi zərəri var?**

- Bu anbarların təmizlənib-təmizlənmədiyi məlum deyil. Hər birimiz şahid olmuşuq ki, sudan çox zaman xlor iyi gəlir. Bu, o deməkdir ki, anbarda xlorlanma prosesi yeni həyata keçirilib. Ona görə bu suları mütləq qaynatmaq lazımdır.

**- Marketlərdə olan çörəyin keyfiyyəti sizi qane edir?**

- Biz uzun müddətdir ki, bu çörək məsələsi ilə bağlı mübarizə aparırıq və hər zaman aktual məsələ olub. Azərbaycan xalqı çörəkdən çox istifadə edir. Bu əhalinin ən çox tələbat duyduğu qida məhsuludur. Çörəkdə ən böyük problem isə onun açıq şəkildə satılmasıdır. Satışda olan bir çox çörəklərin tərkibi məni qane etmir. Bu günləri bütün yaşlarda kifayət qədər xərçəng xəstəliyinə rast gəlirik ki, bunun da səbəbi çörəkdir. Bu çörək zavodlarından asılı olan bir şey deyil. Problem buğdadadır. Buğdanın kəpək və rüşeym hissəsi ayrılır. Həmin bu maddə isə orqanizm üçün çox vacibdir və xərçəngdən qoruyur. Bu olmadıqda isə, çörək kəpəklə rüşeymin nişastasından hazırlanır. İndiki çörəklərdə isə bu qoruyucu hissə yoxdur.

Digər problem isə selofan paketlərdə olan çörəklərdir ki, bu da bir çox hallarda isti-isti selofana yığılır. Bu isə çörəyin tərkibini tamamilə zərərli maddəyə çevirir. Selofanda alınan çörəyi evə gətirən kimi selofandan azad etmək lazımdır. Taxtadan olan çörəkqablarında çörək saxlamaq daha yaxşıdır. Qeyd edim ki, çörəyi maksimum 2 və 3 gün saxlamaq olar.

**- Evdə çörək bişirmək istəyənlərə nə tövsiyə edirsiniz?**

- Çörək xəmiri hazırlayarkən içərisinə isladılmış və əzilmiş lobya (paxla) əlavə etdikdə həddindən artıq faydalı bir çörək əldə edirik. Həmçinin, noxud da ola bilər.

**- Bir sıra mənbələrdə deyilir ki, un məmulatları immuniteti öldürür. Bu, doğrudurmu?**

- Bəli, həm immuniteti öldürür, həm də qanda şəkəri sürətlə qaldırır və sürətlə də aşağı salır. Bu, o demək deyil ki, məsələn, makaron tamamilə zərərlidir və biz onu qida rasionundan çıxarmalıyıq. Müəyyən miqdarda qəbul etmək olar. Bir dolu boşqab makaron yemək düzgün deyil. 150 qram yeyilsə kifayətdir. Həmçinin, xəngəl də buraya daxildir.

**- Artıq mövsümü olduğu üçün bir çox insan turşu bağlayır. Bəs, burada qaydalar necə olmalıdır? Ümumiyyətlə, turşu necə qoyulmalıdır ki, insan orqanizminə zərər verməsin?**

- Turşular içində ən faydalı hesab etdiyim zeytun turşusudur. Bəzən düşünürlər ki, zeytun turşusu hazırlamaq çətindir. Amma bu, o qədər də çətin deyil. Sadəcə olaraq, bir az əziyyətlidir. Zeytun turşusu hazırlayarkən onun acılığını çıxartmaq üçün kimyəvi maddədən istifadə edirlər ki, mən buna tamamilə qarşıyam. Yaxşı olar ki, zeytunu suya əlavə edib ya döymə üsulu, ya da bıçaqla 4 tərəfini kəsib suda saxlayaq. Lakin mütləq hər gün su dəyişilməlidir. Bundan başqa, kələm turşuları da həddindən artıq faydalıdır. Həm də tərkibində C vitamini var.

**- Deyirlər limonun qabığında xeyli vitamin var. Bəs, bu qabıqdan hansı məqamlarda istifadə etmək olar?**

- Qabığını kim yeyə bilirsə yesin. Amma belə götürdükdə mətbəxdə də müəyyən salatlar hazırlayarkən, rəndədən keçirib istifadə etmək olar. Piroqlara da rəndələyib qatmaq olar. Həmçinin, dəniz məhsulları salatında da istifadə etdikdə çox ləzzətli olur.

**- İnsan gün boyu hansı qidanı qəbul etsə, özünü daha çox gümrah hiss edər? Belə bir qida var?**

- Bəli, var. Əgər həm cavan qalmaq, həm də orqanizmimizi gücləndirmək istəyiriksə, bu, ilk növbədə, miqdarında mövsümi meyvə tərəvəzdən asılıdır. Daha çox tünd meyvə və tərəvəzlər faydalıdır. Məsələn, qarağat, qaragilə, qara üzüm, nar və s.

***Ayşən Vəli***

## Qazın qiymətləri niyə artmaqda davam edir?



Avropada qazın qiymətləri kubmetr üçün 2 min dollar səviyyəsinə çatana qədər art mağa davam edəcək. SİA xəbər verir ki, bu sözləri Norveç "Rystad Energy" konsaltinq şirkətinin Qaz Bazarları Departamentinin vitse-prezidenti Sindre Knutsson RİA Novosti-yə bildirib.

Qeyd edək ki, çərşənbə günü Avropada qazın qiymətləri yenidən rekord həddə çatıb və min kubmetr üçün 1900 dolları keçib, lakin bir qədər sonra yenidən 1325 dollara düşüb. Avropa İttifaqında "mavi yanacaq" və topdan elektrik enerjisinin qiymətləri rekord qırır və bütün bunlar AB sakinləri və müəssisələri üçün elektrik enerjisinin dəyərini artırır.

"Avropa Komissiyası bu yaxınlarda yüksək qiymətlərin ev təsərrüfatlarına və sənayeye təsirini məhdudlaşdırmaq üçün bir plan açıqlayacağını bəyan edib. Bu, qış boyunca tələbatı dəstəkləyə bilər. Bununla yanaşı, Çin də aparıcı enerji şirkətlərinə enerji təchizatını nəyin bahasına olursa olsun təmin etmək əmr edilib", deyə Knutsson bildirib. Onun sözlərinə görə, qiymətlər artmağa davam edə bilər və min kubmetr üçün 2 min dollar səviyyəsinə də çata bilər.

***İnam Hacıyev***

## İraq saytı Ermənistanın Gəncədə törətdiyi müharibə cinayətlərindən yazıb

*İraqın "Afkarhura.com" saytı Diaspor Fəaliyyətinə Jurnalistlərin Dəstəyi İctimai Birliyinin sədri Fuad Hüseynzadənin "Ermənistan ordusunun Gəncədə törətdiyi müharibə cinayətləri" sərlövhəli məqaləsini yayıb.*

AZƏRTAC xəbər verir ki, məqalədə Vətən müharibəsinin davam etdiyi müddətdə, 2020-ci il sentyabrın 27-dən noyabrın 10-na qədər Ermənistan silahlı qüvvələri tərəfindən azərbaycanlı dinc əhalinin sıx yaşadığı rayon və şəhərlərin ərazisinə 30 minə yaxın mərmi və 227 raketin atıldığı qeyd olunur.

Vurğulanıb ki, düşmənin silahlı birləşmələrinin Azərbaycanın müxtəlif ərazilərində, heç bir hərbi obyektlər olmayan yaşayış məhəllələrində dinc əhalini atəşə tutması nəticəsində 12 azyaşlı və 27 qadın olmaqla 93 nəfər qətlə yetirilib, 50 azyaşlı və 101 qadın olmaqla 454 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb.

Yazıda Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin təşkilatçılığı ilə 2021-ci il oktyabrın 3-də bir sıra QHT təmsilçilərinin Gəncə şəhərinə səfəri barədə məlumat verilib, mülki əhaliyə qarşı törədilən hərbi cinayətlərin mənzərəsi ilə tanış olmaq imkanı yaradılıb: "Səfərdə əsasən insan hüquqlarının müdafiəsi, habelə uşaq və qadın hüquqlarının qorunması istiqamətində fəal olan 100-ə yaxın QHT təmsilçisi iştirak edib. İlk öncə Ermənistanın hərbi cinayətləri ilə tanış olan qonaqlara məlumat verilib ki, işğalçı Ermənistanın silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il Cenevrə Konvensiyalarını və onların Əlavə Protokollarını pozaraq Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla yaşayış məntəqələrini ağır artilleriya silahları ilə atəşə tutub. Döyüş meydanında məğlubiyyətə uğrayan Ermənistan ordusunun Gəncədə törətdiyi müharibə cinayətləri nəticəsində aralarında uşaq, qadın və yaşlıların da olduğu 26 nəfər həlak olub, 175 nəfər yaralanıb, çoxsaylı mülki infrastruktur obyektlərinə və nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəyib. QHT-lərə Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurasının sədr müavini, Prezident Administrasiyasının məsul əməkdaşı Vüsal Quliyev bildirib ki, Ermənistanın raket zərbələri nəticəsində Gəncədə, Bərdədə, habelə digər şəhər və kəndlərimizdə törətdiyi terror aktlarına, faciəyə hələ də beynəlxalq qurumlar tərəfindən siyasi və hüquqi qiymət verilməyib".



Məqalədə bildirilib ki, səfər çərçivəsində keçirilən konfransda QHT-lər tərəfindən Ermənistanın siyasi və hərbi rəhbərliyinin bir il öncə Gəncədə insanlıq əleyhinə törətdiyi cinayətlərlə bağlı beynəlxalq təşkilatlara, hüquq-müdafiə təşkilatlarına, QHT-lərə, media təmsilçilərinə, parlament üzvlərinə və hökumətlərə müraciətin qəbul olunduğu vurğulanır: "Azərbaycan dövlətinin məqsədi regionda sülhün və ardıcıl sabitliyin təmin olunmasıdır. Məhz buna görədir ki, Azərbaycan Respublikası hər zaman müharibəyə qarşı olub və bu münaqişənin də həlli üçün sülh, danışıqlar yolunu seçməsinə baxmayaraq, işğalçı Ermənistan dövlətinin qeyri-konstruktiv mövqe göstərməsi, beynəlxalq hüququn normalarına açıq-aşkar hörmətsizlik nümayiş etdirdi. Diplomatik danışıqlar prosesinin sonuncu limiti tükənəndən sonra Azərbaycan öz ərazi bütövlüyünü alternativ yolla bərpa etməyə qadir olduğunu bir daha göstərdi. Azərbaycan Silahlı Qüvvələrinin cəbhədə əldə etdiyi şanlı Zəfər bunun bariz nümunəsi oldu".

# Erməni terrorunun izi və tarixi: Gəncə qətliamı









***Yaşadığımız yüzillik bəşər sivilizasiyasının yüksək nöqtəsi olaraq qəbul edilir və ağılın, idrakın sivil nöqtəyə yüksəldiyi zamanda insana sui-qəsdin edilməsi, düşünülmüş terrorun törədilməsi əlbəttə ki, qəbuledilən deyil. Terrorizm müasir dövrün ən təhlükəli təzahürlərindən biridir və müasir dünya bunun acı nəticələrini hələ də yaşayır. Terrorizm haqqında birmənalı tərif olmasa da, mütəxəssislərin əksəriyyətinin qənaətinə görə siyasi, dini, ideoloji və iqtisadi məqsədlərə çatmaq üçün qeyri-qanuni əməllərin, zorakılığın, gücün, hədənin tətbiq olunmasıdır.***





Təbii ki, real həyatda terror aktlarından daha çox günahsız insanlar, dövlət adamları ziyan çəkir və siyasi, etnik, dini və s. zəmində yaranan terrorların şahidi oluruq.

Tarixin müxtəlif dönəmlərində Azərbaycan xalqı terror aktlarının, vəhşiliklərin, soyqırımların acı nəticələrini yaşamışdır. Ermənistan tərəfindən etnik terrora məruz qalmış Azərbaycan xalqına qarşı törədilən əməllər insani əxlaqa, qanuna, beynəlxalq hüquqa ziddir. Yaşadığımız tarix göstərir ki, erməni terrorlarının ölkəmizdə sayı-hesabı yoxdur. Bu terror aktları qəddar, faşist xislətli əməllərdir ki, xalqımız bunu yaşayıb. 44 günlük Vətən müharibəsində də xalqımız ermənilərin təcavüzkar siyasəti ilə üz-üzə qaldı. Vətən müharibəsində biz erməninin vəhşi simasını bir daha görmüş olduq. 30 ilə yaxın bir zamanda beynəlxalq hüququn tələb və təkidlərinə məhəl qoymayan beynəlxalq konvensiyalara zidd topladığı silahlarla 44 günlük Vətən müharibəsində beynəlxalq hüquq müstəvisində Ermənistanın işğalçı, eyni zamanda, terrorçu dövlət olduğunu tam şəkildə sübuta yetirən yetərincə faktlar mövcuddur. Gəncə, Tərtər, Mingəçevir kimi yerlərdə mülki əhalinin kompakt yaşadığı ərazilərə raket zərbələri endirməsi Ermənistan hökumətinin təcavüzkar, terrorçu simasını ortaya qoymuş oldu. Qocaya, cavana, uşağa qıyan erməni müharibə qanunlarını belə pozaraq çirkin niyyətləri ilə tarixən nəyə xidmət etdiklərini bir daha göstərdi. Neçə-neçə qurbanlarımız oldu. Bu, erməni faşist ideologiyasıdır. Vətən müharibəsi zamanı düşmənin xain atəşi nəticəsində təkcə Tərtərdə, ümumilikdə, 16 mülki şəxs qətlə yetirilib, 63 nəfər yaralanmışdır. Müharibə zamanı, həmçinin Tərtər şəhəri də daxil olmaqla, rayonun 40 yaşayış məntəqəsinə 16 min 277 tank, top, qrad, minomyot mərmisi, 21 qadağan olunmuş raket atılmışdı.

Nəticədə, Tərtərdə 82 çoxmərtəbəli yaşayış binasına, 5949 fərdi evə, 184 sahibkarlıq və 301 qeyri-yaşayış obyektinə, 17 məktəbə, 11 uşaq bağçasına, 1 texniki peşə məktəbinə, 1 musiqi məktəbinə, 30 inzibati binaya və 20-yə yaxın mədəniyyət və səhiyyə müəssisəsinə ziyan dəymişdir. Mülki əhaliyə atəş açmaq isə bütün beynəlxalq konvensiyalarla qadağan olunur və yolverilməzdir. Ona görə də, Ermənistanın beynəlxalq qurumlar qarşısında cavab verməlidir. Döyüş meydanında sarsıdıcı məğlubiyyətə uğrayan Ermənistanın cəbhə xəttindən uzaqda yerləşən yaşayış məntəqələrini və mülki obyektləri hədəfə alması dünyanın, dünya KİV-lərinin döyüş meydanında iştirak etdiyi bir zamanda baş verir.

## "MÜLKİ ŞƏXSLƏRƏ, ƏLİYALIN İNSANLARA QARŞI QƏDDARLIQ GÖSTƏRMƏK ONLAR ÜÇÜN ADİ BİR ŞEYDİR"

Moskvada imzalanan humanitar atəşkəs rejimindən sonra Ermənistan silahlı qüvvələrinin qədim Gəncəni raket atəşinə tutması nəticəsində mülki obyektlərə və yaşayış məhəllələrinə aramsız atəşlər yağdırıldı. Çoxlu dağıntılar oldu, insanlar həlak oldu, yaralandı. Onların arasında uşaqlar və qadınlar da var. Gəncədə mülki insanların məskunlaşdığı əraziyə raket hücumu bir daha Ermənistanın günahsız insanları, uşaqları, qadınları hədəfə alaraq ardıcıl olaraq bu cür çirkin hücumlara əl atması onun faşizm xislətini və cinayətkar mahiyyətini bir daha sərgiləyir. Ermənistanın mülki obyektlərə və yaşayış evlərinə raket hücumu beynəlxalq sənədlərə zidddir və Ermənistan bu hərəkətə görə cavab verməlidir. Gəncədə yaşanılan matəm erməni təcavüzkarlığının əsl siması idi. Bu tarixdir: erməninin terrorçuluq əməllərinin izi və tarixi. Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin "Haber Türk" televiziya kanalına müsahibə verərkən bildirmişdir ki, Ermənistanın bu çirkin siyasəti anlaşılandır: "Çünki onlar hər zaman döyüş meydanında məğlubiyyətə uğrayanda belə çirkin əməllərə əl atırlar. Mülki şəxslərə, əliyalın insanlara qarşı qəddarlıq göstərmək onlar üçün adi bir şeydir. Azərbaycan xalqı bunu Xocalı soyqırımının timsalında görmüşdür".

Gəncədə törədilən terror aktı daş yaddaşımıza həkk olunub. Gecə insanların evlərində yatdığı zaman raket atəşi nəticəsində dağılan yaşayış massivi və raket zərbəsindən məhv olmuş məhəllədə dağılan evlərin qalıqları hər zaman kino lenti kimi göz önündən keçir. Qanlı gecədə sakinlərin həyatını itirməsi, erməni terroristlərinin dinc əhaliyə qarşı törətdikləri cinayətlər sənədlərin dili ilə hər zaman danışır. Yatmış insanlara qarşı törədilən terror insanlıq əleyhinə olan cinayətdir.

Azərbaycan Prezidenti İlham Əliyev demişdir ki, bu, Ermənistanın növbəti terror aktıdır: "Ancaq bu terror aktı Azərbaycan xalqının iradəsini qıra bilməz. Biz düşmənə qarşı daha böyük əzmlə, iradə ilə vuruşacağıq, daha əzmlə, iradə ilə öz torpaqlarımızı azad edəcəyik və Azərbaycan bayrağını işğal edilmiş bütün torpaqlarda qaldıracağıq". Erməni silahlı bölmələrinin Gəncə şəhərini raket atəşinə tutması nəticəsində Şahnəzərovlar ailəsinin yaşadığı faciə yaddan çıxarmı? Dağıntılar altından ailənin yalnız bir üzvü - 2017-ci il təvəllüdlü Xədicə Şahnəzərova sağ çıxarıldı. Azyaşlı qızın atası Röyal, anası Züleyxa və yaşyarımlıq bacısı Məryəm isə erməni terrorunun qurbanları oldu. Azyaşlıya qıyan, onu yetim qoyan, insanları şikəst, kor edən, əlil edən, bir ailənin faciəsinin qatili ermənidir. O erməni ki, həmin hadisədən düz dörd il əvvəl 2017-ci ilin iyul ayının 4-də Füzuli rayonunun Alxanlı kəndində məskunlaşan mülki əhalinin yaşadığı yaşayış məntəqələrinin və mülki obyektlərin qəsdən 80 və 102 millimetrlik minaatanlardan və dəzgahlı qumbaraatanlardan atəşə tutdu. Nəticədə, 1967-ci il təvəllüdlü yaşlı qadın Allahverdiyeva Sahibə və onun 2 yaşlı qız nəvəsi Quliyeva Zəhra həlak oldular, digər mülki şəxs - 1965-ci il təvəllüdlü qadın Quliyeva Səlminaz ağır yaralandı və mülki obyektlər dağıdıldı. Təbii ki, mülki şəxslərin münaqişələrdə hədəfə alınması qəbuledilməzdir.

## ERMƏNİSTAN 1949-CU İL 12 AVQUST TARİXLİ CENEVRƏ KONVENSİYASININ MÜDDƏALARINI KOBUD ŞƏKİLDƏ POZUB

2 yaşlı azərbaycanlı Zəhra Quliyevanın cəbhə xəttində Ermənistanın işğalçı qüvvələri tərəfindən qətlə yetirilməsi dözülməz idi. Bu, bir daha Ermənistan ordusu tərəfindən Azərbaycan ərazilərində törədilən təcavüz və təxribat faktlarını, onların iyrənc siyasətini ortaya qoymuş oldu. Bu, Ermənistan silahlı qüvvələri tərəfindən törədilən növbəti vandalizm aktıdır. Bütün bunlar dünya ictimaiyyətinə çatdırıldı və dünyanın gözü qarşısında ermənilərin təcavüzkar siyasəti bir daha ifşa edildi.Onu da vurğulamaq yerinə düşər ki, 1994-cü ildə atəşkəs rejiminin elan olunmasına baxmayaraq, Vətən müharibəsinə qədər 30-dan artıq azərbaycanlı uşaq erməni terrorunun qurbanı oldu. Onlardan 13-ü həlak olub, 19-u isə yaralanıb. 2 yaşlı Zəhra Quliyeva da erməni vandalizminin qurbanına çevrildi. Bu beynəlxalq təşkilatlar tərəfindən qəbul edilən hüquqi normalara sığmır. İnsan hüquqları sahəsində mövcud beynəlxalq sənədlərə məhəl qoymayan Ermənistan müharibə zamanı mülki əhalinin qorunması haqqında 1949-cu il 12 avqust tarixli Cenevrə Konvensiyasının, BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasının və digər sənədlərin müddəalarını kobud şəkildə pozub. Beynəlxalq tribunalardan onların əməllərinə qarşı hökm oxunmalıdır.

Humanizm prinsipinə hörmətsizlik edən, beynəlxalq hüququn normalarını, qanunvericiliyi kobud şəkildə pozan Ermənistan rəhbərliyi bütün hərbi cinayətlərə görə cavab verməlidir. Azərbaycan 44 günlük Vətən müharibəsində uğurlu döyüş əməliyyatı apardı və tarixi ədalət bərpa olundu. Təcavüzkar ermənilərin çirkin siyasətləri iflasa uğradı. Dünyanı təəccübləndirən, hərb tarixində yeni səhifə olan müharibədə Azərbaycan QALİB oldu. 30 illik bir həsrətə son qoyuldu və tarixi torpaqlarımız işğaldan azad olundu. Azərbaycan bu gün işğaldan azad olunan ərazilərdə böyük abadlıq-quruculuq işlərinə start verib və genişmiqyaslı layihələr icra olunur.

# Məktəblərdə yenidən "Müəllimlər günü"nə pul yığılır?




***"Sosial şəbəkələrdə məktəblərdə pul yığılması ilə bağlı olan iddialara cavab olaraq bildirə bilərəm ki, Təhsil Nazirliyi tərəfindən hər zaman ictimaiyyətə müraciət olunur ki, məktəblərdə pul yığılması ilə bağlı hallar varsa, mütləq şəkildə Təhsil Nazirliyinin "Qaynar Xətt"inə zəng etsinlər və məlumat versinlər. Əmin olsunlar ki, bu kimi hallarda nazirlik həmin dəqiqə tədbir görür". Bu sözləri SİA-ya açıqlamasında Təhsil Nazirliyi yanında İctimai Şuranın məsul katibi İlqar Orucov deyib.***

Onun sözlərinə görə, eyni zamanda, bu cür qanunsuzluqlarla bağlı mübarizədə son illərdə Təhsil Nazirliyi çox ciddi tədbirlər həyata keçirir və bu kimi təhsilə, müəllim adına yaraşmayan neqativ hallar varsa, müəllim və rəhbərliklə bağlı ciddi işlər görür: "Birmənalı olaraq, Azərbaycan dövlət məktəblərində qanunsuz hərəkətlər, valideynlərdən və şagirdlərdən pul yığılması halları olacaqsa, bununla ən sərt şəkildə həmin insanlar cəzalandırılacaq. Təhsil müəssisəsində heç bir müəllim və rəhbər şagirdlərdən və valideynlərdən pul tələb edə bilməz".



**İlqar Orucov sözlərinə belə davam edib:** "Əlbəttə ki, bu kimi hallarla mübarizə yalnız Təhsil Nazirliyinin işi olmamalıdır. Tam səmimi şəkildə deyim ki, bir çox hallarda bu işlərin başında elə valideynlərin özləri dayanırlar. Tutaq ki, bir sinifdə oxuyan 30 uşaqdan 10-nun valideyni israrla deyir ki, "gedək müəllimə hədiyyə verək". Bu kimi hallara valideynlər yol verməsinlər. Belə işlərlə məşğul olmasınlar. Onlar bu işi müəllimlərlə birlikdə həyata keçirir".

**Təhsil eksperti Kamran Əsədov isə məsələyə belə münasibət bildirib:** "Oktyabrın ilk həftəsi "Müəllimlər günü" kimi qeyd olunur. Hər bayram yaxınlaşdığında sinif rəhbərinin təyin etdiyi qiymət üzrə müəllimlər üçün yığılan pullar, valideyn komitəsinin sinif rəhbəri üçün (guya xəbəri yoxuydu) yığdığı pullar və s. kimi xoşagəlməz proses ictimaiyyətdə ikrah oyadırdı.

Hər il orta məktəblərdə Təhsil Nazirliyi ciddi mübarizə aparsa da, "Müəllimlər günü" öncəsi pul yığdırır. Bu proses hər il bütün bayramlar öncəsi gedir. Maraqlıdır ki, bu bayramların obyekti daha çox xanım müəllimlər olur.

Diqqəti çəkən odur ki, əvvəllər məktəblərdə əlamətdar günlərlə bağlı pulu direktor, müavini, sinif rəhbəri və ya müəllimlər yığırdısa, indi bunu müəllim - Valideyn Komitəsi edir. Əminliklə deyə bilərəm ki, orta məktəblərdə direktorun icazəsi olmadan pul yığa bilməz. Əlbəttə ki, cəmiyyət onu dünyaya gətirənə, ona elm öyrədənə təşəkkür etməlidir, onu təbrik etməlidir. Amma bu, heç də kütləvi şəkildə məcburi qaydada pul yığımı ilə həyata keçirilməməlidir.

Bayramlar münasibəti ilə artıq son illər məktəblərdə normal tədbirlər keçirilmir. Ssenarilər yazılmır.



Ssenari eynidir, ancaq pul yığılması. Amma Rusiyada, Gürcüstanda bununla bağlı xüsusi proqram hazırlanır, məkrəblərin öz fəaliyyət dərnəkləri xüsusi proqramlar nümayiş etdirirlər. Gürcüstanda heç bir əlamətdar gündə şagirdlərdən pul yığıla bilməz. Hətta valideynlər istəsələr belə bunu edə bilməzlər. Müəllimlərin özü buna imkan verməz. Heç Avropa və Amerika ölkələrində demirəm. Bizdə isə aşağı əmək haqqını bəhanə edib müəllimlər hər bayram günü gözlərini şagirdlərin əllərinə dikirlər. Pul verməyən şagirdə qarşı isə çox pis münasibət olur. Ona psixoloji təzyiq edirlər. Təəssüf ki, buna yol verən müəllimlərimizin sayı heç də az deyil.

İlk növbədə qeyd edim ki, bu gün Azərbaycanın 4481 ümumtəhsil məktəblərində çalışan 149,602 müəllimin 71%-ni xanımlar, 29 %-ni isə kişi müəllimlər təşkil edir. Əslində, bu rəqəmlər vəziyyətin nə qədər təhlükəli olduğunu göstərir. Orta məktəblərdə kişi müəllimlərin azlığı şagirdlərin xarakterinin formalaşmasına ciddi şəkildə təsir göstərir. Yəni hal-hazırda təhlükə yalnız və yalnız təhsilin keyfiyyəti, dərsə davamiyyət və ən nəhayət, uşaq xarakterinin formalaşması ilə bağlıdır.

Uşaqlar məktəbəqədər təhsil pilləsindən tutmuş, ali məktəbə qədər ancaq qadın müəllimlərin, evdə də analarının təsiri altında formalaşır ki, bu da onların xarakterinə təsirsiz ötüşmür.

Etiraf edim ki, bu gün müəllimlərin aldığı əmək haqqı onların aylıq xərclərini ödəmir. Biz 1980-ci illərə nəzər salsaq görərik ki, bu rəqəm 50/50 vəziyyətindədir. Bəzi bölgələrimizdə isə kişi müəllimlərin say faizi daha üstün idi. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra, ölkədə baş verən hadisələr, Qarabağ müharibəsi, iqtisadi çətinlik müəllim kimi fəaliyyət göstərən böyük sayda kişini bu sahədən uzaqlaşdırdı. 1995-ci ildən sonra ölkədə sabitlik yarandıqdan sonra da müəllimin əmək haqqının azlığı bu sahədən üz döndərən kişi müəllimlərin sayını azaltmadı.

Hazırda Bakıdakı orta məktəblərdə fəaliyyət göstərən müəllimlərdən 27 mini qadın, 3600-ü isə kişidir. Müəllimlərin məvaciblərinin azlığı kişi pedaqoqların təhsil sahəsindən uzaqlaşmasına səbəb olur. İş o yerə çatıb ki, paytaxt məktəblərində hətta bədən tərbiyəsi və idman dərslərini də qadın müəllimələr tədris edirlər. Kişilərin sayının az olması bir sıra problemlərə gətirib çıxarır. Orta ümumtəhsil məktəblərində valideyn-müəllim assosiasiyaları olur və onların məqsədi müəllim və şagirdlər arasındakı münasibətləri tənzimləməkdir. Amma demək olar ki, bu kimi qurum və qruplarda nə kişi müəllimlər olur, nə də kişi valideynlər. Real vəziyyət ondan ibarətdir ki, orta ümumtəhsil məktəblərindəki valideyn-müəllim assosiasiyası daha çox məktəbdə baş verən pul yığımlarının məktəb rəsmiləri tərəfindən keçirilməməsinin qarşısını alıb.

Bəzən müəllimlərin özü də bu qruplarda olur, onlar uşaqların vəziyyəti ilə bağlı mütəmadi olaraq valideynlərə məktəb işində, övladlarının tədris prosesində fəal iştirakına dair ümumi məlumat verir. Müəllimin iştirak etdiyi qruplar tədrisin keyfiyyətinin artmasına müsbət təsir edir. Valideynlərin özləri də bu yolla bir-birləri ilə fikir mübadiləsi aparırlar. Müəllimin iştirak etmədiyi "WhatsApp" qruplarında isə valideynlər bayramlar, ad günləri və digər tədbirlərlə bağlı razılaşaraq pul yığılmasını həyata keçirirlər. İlkin nəticədə yığılan pullar müəllimə çatır. Buna rüşvət də demək olmaz. Bu bir növ pul yığımının məktəbin rəsmilərindən valideynlərə keçməsinə xidmət edən qrupdur. Ümumilikdə isə bu, qrupların təhsilin keyfiyyətinin yüksəldilməsi, təhsilin əlçatan olmasına müsbət təsirləri var. Yaxşı məvacib almayan müəllimin dərsə marağı olmur. Fədakarlıq edənlər var təbii. Amma ümumilikdə normal şərtlər olmadan fədakarlıq üzərində bir sistem qurmaq olmaz. Hər kəsdən fədai olmağı gözləmək də doğru deyil. Ona görə də bu işə məsul olan insanlar düşünməlidir mütləq".

***Ayşən Vəli***

# Ermənistanda uşaq-terrorçu düşərgəsi fəaliyyət göstərir

## Kanadalı ermənipərəst jurnalistin Naxçıvanla həmsərhəd bölgədən hazırladığı reportajı bu faktı təsdiq edir

Erməni-daşnak siyasətinə rəğbəti ilə seçilən kanadalı müstəqil jurnalist Nil Hauerin bugünlərdə hazırladığı reportajı ilə diqqət çəkib. SİA xəbər verir ki, erməniperəst təbliğatçı bu dəfə Ermənistanın Naxçıvan Muxtar Respublikası ilə həmsərhəd olan Armaş qəsəbəsində uşaqlar üçün təşkil olunmuş hərbi düşərgədən reportaj hazırlayıb. Reportajda bildirilir ki, ABŞ-ın Hərbi Hava Qüvvələrinin veteranı, milliyyətcə erməni olan Aram adlı şəxs tərəfindən hazırlanan "Feniks" adlı düşərgədə əllərinə silah verilən uşaqlara Azərbaycanla müharibəyə hazırlıq təlimləri keçirilir.

## Amerikalı, livanlı, fransız, rus, suriyalı təlimçilər

Məqalədə Aramla yanaşı, digər xarici təlimçilərin: livanlının, fransızın, rusun, suriyalının və s. adları çəkilir. O cümlədən, Aramın özü də daxil olmaqla hərbi təlimçilərin çoxu Qarabağda separatçı-quldurların sıralarında Azərbaycan Ordusuna qarşı döyüşüblər.




Beləliklə, fakt budur ki, bu düşərgə uşaqlardan istifadə edilməklə Azərbaycana qarşı hazır təxribatçı yetişdirmək məqsədini daşıyır. Söz yox ki, sərhədlərimiz etibarlı əllərdədir və buna baxmayaraq, erməni revanşistlərinin uşaqları da öz murdar oyunlarına qatmaları artıq diqqətin daha da artırılması tələbini ortaya qoymaqdadır.

Daha bir maraqlı fakt budur ki, adıçəkilən terrorçu düşərgəsi bu gün özünü "sivil və demokratik ölkə" adlandıran Ermənistanın ərazisində fəaliyyət göstərir və çox yəqin həmin düşərgə barədə hökumət dairələrinin, yaxud onun yerləşdiyi ərazidəki məsul şəxslərin də xəbərləri var.

## Bu, aşkar cinayətdir!

Lakin göründüyü kimi, Ermənistan hələ də terrorçuluq missiyasından geri qalmır və hər an təxribatlar, diversiyalar, özü də uşaqların əli ilə törətməyə hazırdır. Bu gün Ermənistan dövləti və onun rəhbərləri bilməlidirlər ki, uşaqların hərbi əməliyyatlara cəlb edilməsi Beynəlxalq cinayət məhkəməsinin maddələrinə görə cinayətdir. Və əlbəttə ki, bu məsələdə bizim diplomatlarımız da fəaliyyətlərini artırmalı, sözügedən informasiyanı beynəlxalq təşkilatların diqqətinə çatdırmalıdır. Nə qədər ki, gec deyil!

Kanadalı erməniperəst reportyor Nil Hauerin terroru və təxribatı təbliğ edən materialını isə aşağıdakı linkdən görə bilərsiniz.

https://www.washingtonexaminer.com/politics/inside-the-world-of-private-war?_amp=true&__twitter_impression=true

***Rövşən RƏSULOV***

# Niyə xarici vətəndaşlarla evlənməyə üstünlük verilir?

***Son zamanlar ölkəmizdə əcnəbilərlə evlənən qadın və kişilərin sayı kifayət qədər artıb. Bəs, bunun səbəbi nədir? Niyə bizim xanımlar və bəylər daha çox başqa millətin nümayəndələri ilə münasibət qurmağa meyillidir? SİA olaraq məsələ ilə bağlı araşdırma apararaq ekspert, sosioloq, psixoloq və şəhər sakinlərinin fikirlərini öyrəndik. Əcnəbi sakinlərlə özəl münasibət əsasən, istirahət mərkəzlərində başlayır. Türkiyənin Antalya bölgəsinə işləməyə gələn bir çox rus qadını həyatını aşiq olduqları türklərlə birləşdirir və Antalyada məskunlaşır.***

Deyilənə görə, əcnəbilərlə ailə qurarkən daha çox baxımlı olub olmadığına fikir verilir. Rus qadınları türk kişilərini ailələrinə dürüst və sadiq olduqları üçün seçdiklərini ifadə edən Antalya Rus Kültür Dərnəyi Başçısı Marina Sakarova "Türk kişiləri isə savadlı və baxımlı olduqları üçün rus qadınlarına üstünlük verirlər. Beləcə, iki zəngin mədəniyyətin birləşməsi ilə xoşbəxt bir ailə qurulur".

Bir sıra xarici mənbələr kişilərin niyə daha çox rus qadınlarına meyilli olmasını göstərir. Rus qadınlarının çox şıltaqlıqları yoxdur, səhvlərinizə hörmət edirlər. Üstəlik, əgər arada eşq olmadan onlara xəyanət edirsinizsə, sizi bağışlayırlar. Şəxsi vaxtınıza hörmətlə yanaşırlar. Onlar üçün həftə sonu dostlarınızla birlikdə quracağınız planlar problem olmayacaq. Evdən kənarda olduğu kimi evdə də özlərinə böyük qayğı göstərməyi və həmişə gözəl və cazibədar və qalmağı sevirlər. Bunu özlərini xoşbəxt etmək üçün etsələr də, siz də bəyənəcəksiniz.

Cinsi əlaqə baxımından rahat bir cəmiyyətdə və ölkədə yaşadıqlarına əsaslanaraq, münasibətlərinizdə sizi xoşbəxt edəcəklərinin çox böyük ehtimalı var. Rus qızları əylənməyi və gecə yaşamağı sevsələr də, yetkin və ana xarakterə malikdirlər. Daha çox uşaq sahibi olmaq istəmələri bunu axtaran türk kişilər üçün yaxşı bir səbəbdir.

ARAŞDIRMA

Çox qısqanc deyillər və axmaq qısqanclığa girmirlər. Amma təbii ki, dünyanın hər bir qadını kimi sevdikləri kişilərə və ərlərinə qısqanclıqla yanaşırlar. Bəs, bizim qızlar niyə xarici oğlanlara maraq göstərirlər?

**1. Anlayışlı olduqları üçün**

Ağıllı adam güclü adamdır. Anlama dozasını tənzimləmək həm də qızların xarici kişiləri necə sevdiyi sualına cavab vermək deməkdir. Çünki anlayışın dozası həm də sevginin dozası deməkdir.

Bəs nə etməlisən? Aşağıdakı kimi ümumiləşdirək:

"Onu boğmaq və həyatını zindana çevirmək. Amma hökmranlığına xələl gətirəcək qədər də onu nəzarətsiz qoyma. Əlindəki quşu çox sıxsan, ölər, amma çox buraxsan da uçar".

**2. Pozitiv olmağın gücü**

Pozitiv olmaq, insan münasibətlərinə gəldikdə kişinin ən güclü silahına çevrilir. Çünki kişilərin ümumi quruluşu şikayətlərə əsaslanır. Bu səbəbdən cəmiyyətdə "kədərli və mənfi kişi cəmiyyəti" üstünlük təşkil edir. Belə bir mənfi mühitdə pozitiv bir oğlan olmaq, qızı öz gücü altına almaq deməkdir və buna pozitiv olma gücü deyilir. Qızlar da məhz pozitiv xarici kişiləri daha çox sevir. Özünüzü motivasiya edərək özünüzü idarə etməyə və daha müsbət bir əhval-ruhiyyə ilə yaşamağa çalışmalısınız. Bunu müəyyən bir müddət etdikdən sonra ətrafınıza pozitiv enerji yaymağa başlayacaqsınız və bu enerji xarici qızların ətrafınızda fırlanmasına səbəb olacaq.

**3. Dinləmənin gücü**

Göründüyü kimi cəmiyyətdə heç kim qarşısındakı insanı dinləmir. Digər tərəfdən, hər kəsin özünəməxsus bir hekayəsi olduğu və bunu söyləməsi lazım olduğu aydındır. Yaxşı, belə bir mühitdə bir qızı səmimiyyətlə dinləyən bir adamın nə qədər güclü olduğunu bilirsinizmi?

**4. Duyğunun gücü**

Emosional olaraq güclü olan bir adam qısa müddətdə qızların sevimlisinə çevrilə bilər. Soruşursan niyə? Bunun iki səbəbi var:

Birinci səbəb qadınların emosional cəhətdən güclü kişilərlə tez bir zamanda tanış olmalarıdır. Çünki qızlar kişilərdən daha emosional varlıqlardır və bir kişinin də emosional olduğunu görəndə ona daha yaxın hiss edir. Bu da iki cins arasında qırılmaz bir bağ yaradır. Çünki insanlar həmişə özlərinə bənzər insanlarla birlikdə olmağı üstün tuturlar.

**5. Nitqin gücü**

Natiqliyin bir sənət olduğu bugünkü dünyada danışma gücü ilə gündəmə gələn kişilər həmişə daha prestijli olublar. Bu kontekstdə sizə və xarici qızların kişiləri necə sevdiyini soruşan bütün kişilərə tövsiyə budur: Hər gün ən az 15 dəqiqə audio kitab oxuyaraq diksiyanızı düzəldin. Zaman keçdikcə hətta danışığınızın nə qədər yaxşılaşdığına da təəccüblənəcəksiniz. Unutmayın ki, insanlar geyimləri ilə qarşılanır, amma danışıqları ilə yola salınırlar.

**6. Sirli adamın gücü**

Niyə qızlar sirli oğlanları sevirlər? Qızların şüuraltında "bir qədər sirli kişilər" bir sehrbaz və ya psixi gücə sahib kimi qəbul edilir.

Məsələ ilə bağlı psixoloq Aytən Ələkbərova bu cür münasibət bildirib: "Ailə qurmaq ilk olaraq mental duyğularımızın açarıdır. Çünki, artıq bəşəriyyətə gəldiyimiz bir gündən bəzən valideynlərimiz kimləsə bizi göbəkkəsdi eləyər, arzuları, xəyalları, istəkləri olar, hətta bəzən özlərinin xoşbəxt olmadığı ailə tablosunda sanki övladlarının ailə qurmasında birbaşa vasitəçi olmaq istəyirlər. Yəni, "mən bunu belə etmədim, belə etsəydim daha xoşbəxt olardım", "valideynlərim mənim sözümə qulaq asmadılar, assaydılar təbiidir ki, mən indi atanla bu zülmü çəkməzdim" kimi fikirlər də var. Baxırıq ki, bu söhbətlərin sonunda istər qızlarımızda, istərsə də oğlanlarımızda yaranacaq mental duyğulardan uzaqlaşmağa doğru addımlar atlır.

Hər kəs son dövrlər öz psixologiyasına belə bir təsir edir ki, mən harada xoşbəxtəmsə orada da öz ailəmi quracam. Necə ki, deyirik ki, harada rahat yaşaya biliriksə, ora mənim vətənimdir. Amma çox gözəl bir atalar misalımız da var ki, gəzməyə qərib ölkə, ölməyə vətən yaxşı.



Ailələrdə bu problemlər yaşandıqca təbii ki, ortalıqdan artıq o fərqlər götürülübdür, uzun ömürlü ailələrin çox olmasında fərqi yoxdur xalaoğlu xalaqızı da ailə qurub boşana bilir, xarici vətəndaşla da ailə qurub boşanmaya gəlib çıxa bilir. İllərlə, 7 il bir-birini istəyib ailə quranlar da ailə qurduqdan sonra düşünürlər ki, sən demə mən heç onu sevməmişəm. Görürsünüz, fərqlər tamamilə yeni, başqa-başqa kriteriyaların üzərində qurulur.



Bizim onlayn seanslarımız da olur və bəzən də görürsünüz ki, xarici ölkədə yaşayan, xarici ölkədə ailə quran və yaxud tələbə olan qızlarımız, oğlanlarımız yazarkən mənim ilk olaraq sualım olur ki, "niyə öz millətimizdən olan bir insana getmədiniz, məhz xarici ilə ailə qurdunuz?" Çoxlarının cavabı bu olur ki, "mental düşüncələr məni yordu, sıxdı. Öncə öz azərbaycanlımı sevirdim, amma onun yersiz qısqanclıqları, güvənsizlikləri məni bu addıma gətirdi. Amma baxıram ki, bu adam məni incitmir, mənə güvənir, inanır". Bir çoxlarında araşdırdığım səbəblər bu olub.

Digərində tamamilə sosial durum məsələsi olub. Yəni, mən oxudum təhsilimi sonunu istədim ki, xaricdə davam etdirim və sonunda gəldim burda ruhumu oxşayacaq sanki ruh əkizimi tapdım. Onunla ailə qurdum və çox xoşbəxtəm. Bax, səbəblər bundan irəli gəlir. Təbiidir ki, burada valideynlərin üzərinə çox böyük bir məsuliyyət düşür. Övladlarımızın yanında apardığımız söz-söhbətlər, narazılıqlar təbiidir ki, "sonunda bizim bütün kişilərimiz bu cürdür, qəddardır, əzabverəndir qaçım canımı qurtarım, bilsəydim o vaxt məni xarici bir vətəndaş istəyirdi onunla ailə qurardım" demək olmaz. Bir də təbiidir ki, sosial şəbəkələr buna birbaşa vasitəçidir. Bir də görürsən ki, bir müddət uzunmüddətli söhbətlərin olması bir-birinin ruhlarını oxşaması sonunda gəlir ki, elə sən demə biz bir-birimizin yarıyıq, biz ailə quraq".

**Media eksperti, jurnalist Rövşən Rəsulov** isə bu məqamlara toxunub: "İndi elə bir zamandır ki, cəmiyyətdə xarici vətəndaşlarla ailə qurmağa pis baxılmır. Amma daha əvvəllər belə məsələlərə çox ciddi yanaşılırdı, xüsusilə Azərbaycan ailələrində. Hətta belə bir hal da mövcud idi: oğlan başqa hər hansı millətin qızını ala bilərdi, amma qızın başqa millətə ərə verilməsinə müsbət baxılmırdı. Bəli, tək-tək hallar olurdu ki, azərbaycanlı qızlar başqa millətin nümayəndələrinə ərə gedirdilər. Onda da bu hal çox təəccüblə, hətta heyrətlə qarşılanırdı.

Məsələnin digər tərəfi də var. Söhbət dini mənsubiyyətdən gedir. Dinimizə görə oğlanlar başqa millətdən olan qızlarla evlənə bilərlər, lakin qız xəylağı yalnız ailə qurmaq istədikləri fərqli millət nümayəndəsinin müsəlman olmasını tələb etməlidir. İndi həmin məsələ də təəssüf ki, "köhnəlmiş düşüncə" kimi atılıb bir kənara. Ancaq gəlin görək burada nə qədər mənəvi, imana xas olan və dəyərlərə qoyulan hörmət amili üstün tutulur. Məncə, bir ailənin möhkəm olması üçün yalnız qarşılıqlı ehtiram deyil, həm də imanlı, mənəviyyatlı olmaq da tələb edilir. Təbii ki, yaşlı və ya orta yaşı nəsil daim bu dəyərləri yeniyetmələrə, gənclərə aşılamalıdırlar. Onda nə ailələr dağılar, nə də başqa arzuolunmaz hadisələr yaşanar.

Zaman dəyişdikcə vaxtilə mövcud olan qaydalar, milli baxışlar, hətta rituallar da dəyişməkdədir. Şəxsən mən, öz düşüncəmə görə belə addımı doğru hesab etmirəm. Bəlkə də bu düşüncəmə görə müasirliyi, kosmopolitliyi daha önəmli sayan kəsimlər məni qınaya da bilərlər, mənim konservant fikirli adam kimi də qiymətləndirə bilərlər, amma heç cür azərbaycanlı qızlarımızın başqa millətlərin oğlanları ilə ailə qurmalarına haqq qazandıra bilmirəm. Halbuki mən də müasirləşmənin tərəfdarıyam, amma çərçivəsində.

Belə ki, ailə dəyərinin kökü, möhkəmliyi, sarsılmazlığı milli və mənəvi dəyərlərimiz üzərində qurulmalıdır və bu mövcudluqla həmin dəyərlərimiz övladlarımıza ötürülməlidir. Əks halda, yaxın gələcəkdə milli genlərimizdə arzuolunmaz kollapslar da yarana bilər. Bax, ondan sonra hər şey istədiyimiz kimi ola bilməz. Qaldı ki, qızlarımızın xarici şəxslərlə ailə qurmalarına - burada məqsədlər də ola bilər. Məsələn, orta sosial həyat sürən bir qız vəziyyətini yaxşılaşdırmaq üçün imkanlı xarici vətəndaşla ailə qurur və bu ailənin mənəvi tərəfləri qətiyyən ola bilməz. Gec, ya da tez həmin ailə mütləq dağılacaq və buna istifadəçilikdən başqa heç cür ad vermək olmur.

Ola bilər ki, azərbaycanlı qız misal üçün, bir alman vətəndaşı ilə qarşılıqlı münasibət hissləri yaşayır, onlar bir-birlərini həqiqətən də sevirlər. Amma bu məsələdə də ciddi tələblərin ortaya qoyulması şərtdir. Qızın ailəsi ilk növbədə öz dəyərimizə hörmət qoymalı, onun tələblərinin yerinə yetirilməsini istəməlidir. Ümumiyyətlə, bu məsələdə belə bir ənənəvi sualı verməyin məncə yeridir: "Xoruz yox idi səhər açılmırdı ki?".

Fürsətdən yararlanaraq qızlarımıza tövsiyə etmək istərdim ki, çalışsınlar milli ruhda yaşasınlar, müasirliklə də ayaqlaşsınlar, amma bu ruhu unutmasınlar. Ailə qurarkən də şükür Allaha ki, qeyrətli, zəhmət-



keş, vicdanlı oğullarımız var, onlarla ailə qurub xoşbəx həyatlarını, dövranlarını sürsünlər, övladlarını böyütsünlər və onları Vətənə layiq vətəndaş kimi yetişdirsinlər".

Məsələ ilə bağlı şəhər sakinlərinin də fikirlərini öyrəndik:

**Şəhər sakini Aytən Qədiməliyeva:** "Azərbaycanlı kişilərin çoxsu işsizdi və yaxşı maaşları yoxdur. Xanımlar da qurduğu həyatı yaxşı yaşamaq, xaricdə gün görmək ümidi ilə xaricilərlə evlənirlər. Təəssüf ki, çoxsunun da şansı gətirmir və gedəndən sonra peşman olanlar da olur, xoşbəxt yaşayanlar da".

Şəhər sakini Aytac İbrahimxəlilova: "Xarici vətəndaşla ailə qurmaq çox yaxşıdır. Bu mənim çox xoşuma gəlir. Hətta düşünürəm ki, bu say artsa çox gözəl olar. Mən özüm də xarici vətəndaşla ailə qurmaq istəyirəm və hərkəsə də məsləhət görürəm. Bu sayədə fərqli dil və mədəniyyət də öyrənmiş olarıq. Həmçinin bizim qızların necə kübar olduğunu da onlara göstərmiş olarıq".

Şəhər sakini Aytən Məmmədova: "Bəzi insanlar düşünür ki, xarici vətəndaşla evlənsələr daha sərbəst olacaqlar və bütün günü gəzəcəklər. Düşünürəm ki, xarici vətəndaşla ailə quranlar tez ayrılırlar. Bizim qızlar daha çox türklərlə ailə qurmağa həvəslidir".

Şəhər sakini Dilbər Məmmədova: "Bizim qızların xaricilərlə evlənməsində əsas səbəb odur ki, qadına yuxarıdan aşağı baxırlar. Qadının vəzifəsi yalnız uşaq dünyaya gətirib yoldaşına qulluq etmək deyil. Bundan başqa amillər də var. Qadın kariyera da qura bilər, işə də gedər. Xarici kişilər qızın keçmişinə baxmır. Onlar üçün əsas indi və bu gündür".

***Ayşən Vəli***

# Kişilər niyə iki telefondan istifadə edir?



***Media bu gün həyatımızın mərkəzində olduğu üçün geyimimizdən tutmuş davranışımıza, düşüncə tərzimizə qədər hər sahəyə təsir etməsi təəccüblü deyil. İnternet bütün dünyada mövcud olduqdan sonra ünsiyyət olduqca asanlaşıb. İnternet sayəsində hər sahədə məlumat əldə edə bilirik.***

Texnologiyanın inkişafı ilə birlikdə smartfonlar hər kəsin əlindədir. Asılılıq səviyyəsində irəliləyirik. Təəssüf ki, telefonda məhdudiyyətlər qoymağı bilmirik. Telefon bədənimizin ayrılmaz bir hissəsinə bənzəyir. Gecə telefonla mesaj yazarkən yuxuya getmək, səhər yuxudan oyanmaq və s. bütün işimiz telefonla. E -poçtlar, həyəcan siqnalları, mesajlar, oyunlar, sosial media ... Şüursuz istifadə bizi dörd tərəfdən əhatə edir. İnternetdə çox vaxt keçirmək cütlüklərin və münasibətlərin dinamikasına çox mənfi təsir edir. Cütlüklərdə ünsiyyətin olmaması, aldatma, virtual dünyada həyatın təqlidindən yaranan bədbəxtlik, narazılıq və depressiya.

Xoşbəxt bir əlaqə üçün cütlüklərin üz-üzə ünsiyyət qurmağı öyrənmələri lazımdır. Bir tərəfdaş danışarkən, digəri əlindəki telefonu "dinləyir" kimi davranır. Dinlədiyini düşünür, amma təsirli dinləmir. O vaxt göz təması, dinlədiyi jestlər, empati yoxdur. Bu baş verdikdə, anlaşılmayan tərəfdaş qəzəblənir. Məni dinləmirsən, anlamırsan. Əslində, səhv ünsiyyət və sonra ciddi uyğunsuzluq ortaya çıxır. Ünsiyyətin olmaması və anlaşılmazlıq səbəbindən boşanma halları artır. Xəyanətin bir sıra növləri var:

### Boşanma yolunda olan xəyanət

Boşanma yolunda olan insanlar boşanma gününə qədər davamlı olaraq özləri üçün yeni birini tapırlar. Çünki boşandıqdan sonra tək qalmaq fikrinə dözə bilmirlər. Bu tip şəxslər, "Onsuz da boşanacağıq" deyərək "İnstaqram"dan biri ilə görüşürlər. Halbuki bu, gizli şəkildə edildiyi müddətcə xəyanət sayılır. Boşanma yolunda bunu həyat yoldaşınıza söyləyirsinizsə, bu dürüstlükdür. Ancaq unutmayın ki, bunu gizli şəkildə etdiyiniz müddətcə xəyanət hesab olunur.

### Bir dəfəlik əlaqə

Alkoqol içdiyiniz bir mühit, həyat yoldaşınızsız bir əyləncə, şəhər xaricində iş görüşməsi və eyni şəxslə bir dəfə cinsi əlaqədə olmaq kimi həyat yoldaşınızın hüzurundan fiziki olaraq uzaqlaşdırdığınız bir yerdir. Əksər insanlar bunun "onsuz da yanımda yox idi" məntiqi ilə aldatdığı fikriniqəbul etməsələr də, bu da əsl xəyanət sayılır.

### İş yerində şəxsi tanışlıq

Birincisi, iş yerində tanışlığın sosial tanışlıqdan çox fərqli olduğunu xatırlamaq vacibdir. Deyək ki, ofisdə söhbət etməkdən zövq aldığınız və qəlbinizdə cazibədar gördüyünüz bir dostunuz var. Nahar fasilələrində birlikdə şam yeməyinə çıxırsan, qəhvə fasilələrində tək başına dedi-qodu edirsən, həmişə yığıncaqlarda yan-yana oturursan, həftə sonu görüşürsən və təqdimatlar üzərində işləyirsən. Bəli, görünüşdə tipik iki iş yoldaşısınız. Ancaq əslində atəşlə oynadığınızı başa düşürsünüz?

### Daim "axtarılan" şəxs olmaq

Cütlüklərin bir-birinə bağlanmadan saxladıqları əlaqələr bir ipdən asılır. Partnyorlarına sadiq hiss etməyən insanlar "Daha yaxşı bir alternativ çıxana qədər səninləyəm" mesajını verən davranışlar sərgiləyirlər. Bu tip münasibətlərdə cütlüyün ortaq məqsədləri bir-birindən fərqlidir. Biri əlaqələrini öhdəçiliklə yaşadığı halda, digəri bu münasibətlərdə yaxşı bir fürsət gözləyən "müvəqqəti bir sərnişin" kimidir. Belə insanlar qarşlarına çıxan heç bir fürsəti əldən vermirlər. Bu səbəbdən ortaqları ilə heç vaxt möhkəm bir bağ qurmurlar. Sadiqlik hissi olmayan insanlar münasibətlərini və tərəfdaşlarını qiymətləndirmirlər.

### Sosial media vasitəsi ilə

Unutmayaq ki, texnologiya sadəcə bir vasitədir. Onu günahsız və ya xəyanətkar məqsədlər üçün istifadə etmək öz əlimizdədir.

Ən günahsızı başqasına aşiq olmaqdır

Sevgi, həyatın çətinliklərindən qaçmağa, gözəllikləri yenidən görməyə, həyatı daha xoşbəxt bir şəkildə qucaqlamağa, özünü daha gənc və daha güclü hiss etməyə imkan verdiyi üçün rədd edilə bilərək bir duyğu ola bilməz. Buna görə də aşiq olan adam xəyanət etməməli olduğunu düşünə bilmir.

Qarşı tərəfi digər insanlarla müqayisə etmək

Münasibətin sonrakı mərhələlərində cütlüklərin bir-birlərini başqaları ilə müqayisə etməsi adi haldır və tez-tez digər insanların həyat yoldaşları ilə müqayisə edilən tərəfin psixikasında dərin yaralar açıla bilər. Əgər ortağınızı daim kənar adamlarla müqayisə edirsinizsə, buna "başdan aldatma" deyilir.

Günümüzdə bəzi kişilər iki telefon istifadə edir. Təəssüflər olsun ki, onların sayı kifayət qədərdir. Bir sıra araşdırmalar göstərir ki, kişilərin iki telefon işlətməsinin altında bir sıra məxvi səbəblər yatır ki, bunlardan biri də xəyanət ola bilər. SİA olaraq məsələ ilə bağlı araşdırma aparıb ekspert, sosioloq, psixoloq və hüquqşünasların fikirlərini öyrəndik:



**Yazıçı-kulturoloq, analitik ekspert Aydın Xan Əbilov:** "Telefon Azərbaycanda son illərin həm aksessuarı, həm də özünə güvənliliyi sübut etmək, başqalarından fərqlənməyini göstərmək üçün bir əşyaya çevrilib. Əgər, əvvəllər bir çox bahalı markalar, orjinal markalı telefonlar, daha sonra smartfonlar bir qrup ədabaz, meşşan təbiətli insanların özlərini başqalarından fərqləndirmək üçün istifadə etdikləri aksessuar hesab olunurdusa, indi artıq bu iki və daha artıq telefon kimi özünü göstərməkdədir.

Bir çox insanlar, xüsusən də kişilərdə daha çox bu özünü göstərir, amma, bəzi qadınlara da bunu şamil etmək olar. İki və daha artıq telefon işlətmək xəstəliyi var. Əslində bunlar heç özləri də bilmədən onsuz da son dövrdə əksər smartfonlar, ağıllı telefonlar iki nömrəlidir və iki nömrə işləyən zaman iki radiasiya almaq deməkdir. Eyni zamanda, üç dəqiqədən artıq danışan zaman isə bilirsiniz ki, hər iki nömrə işlək olan vəziyyətdə əsas smartfon və əsas antenadan dalğalar alan zaman çox böyük bir radiasiya fonu yaranır və birbaşa beyin xərçənginə aparan bir faktordur. Bu da insan səhhətinə və inkişafına çox böyük ziyan vurur. Təsəvvür edin ki, iki və üç smartfon gəzdirən kişilərdə isə bu daha dəhşətli fəsadlar törədir və ona görə də bizim bütün xəstəxanalarda xəstələrin əlindən yer tapmaq mümkün deyil. Bir tərəfdən korona, digər tərəfdən bu telefonlarla bağlı yaranan fəsadlar və xəstəliklərdir. İki telefonu cibində və yaxud sinəyə yaxın bir yerdə yerləşdirən kişilər özləri də bilmədən bədənlərini dəhşətli şüalanmaya tuşlayırlar və bu da onların gələcək həyatında mənfi rollar oynayacaq.

Əgər, biz, statistikaya baxsaq son illərdə kişilər və qadınlar arasında sonsuzluğun yayılmasının şahidi oluruq. Artıq çoxdandır qeyd edilən hallarla bağlı təcrübələr aparılır. Bu təcrübələr nəticəsində belə qərara gəlinib ki, imkan daxilində smartfon və telefonlarda gün ərzində müəyyən müddətdə yəni, yarım saatdan bir, üç dəqiqədən çox olmamaq şərtilə istifadə etmək lazımdır. Eyni zamanda belə bir imkan varsa, daha çox naqilli mikrofonlardan və qulaqcıqlardan istifadə etməklə şüalardan bir qədər özünü qorumaq lazımdır.

Əslində bir çox kişilərin bir neçə telefon və smartfon istifadə etməsi, müxtəlif nömrələrdən yararlanması onların düz əməl sahibi olmamasına dəlalət edir. Bu artıq psixoloq və sosioloq tərəfindən araşdırılıb. İnsanın digər insanlardan, dostlardan, ailə üzvlərindən, xüsusən də həyat yoldaşından gizli əlaqələri varsa və yaxud müxtəlif insanlarla ictimai nigaha və münasibətlərə girirsə deməli bu böyük bir problemdir. Çox az sayda insan var ki, bəli, onlar işlə bağlı bir neçə telefon işlədə bilərlər. Bu əsasən dövlət qurumlarının nümayəndələri, hüquq-mühafizə orqanları və məxfi qurumların nümayəndələrinə aiddir. Amma, hər hansı bir iş adamı, biznesmen və yaxud tanınmış milyarderlərə baxanda xaricdə onlar heç smartfon da istifadə etmirlər. Onlar informasiya təhlükəsizliyinə və yaxud fərdi məlumatların sızmamasına görə onlar daha çox keçmişdə olan sadə telefonlardan istifadə edirlər. Çünki, onun şüalanması da azdır, ondan müəyyən şəxsi məlumatları və yaxud danışıqları götürmək də çətindir.

Amma, Azərbaycanda bir növ xəstəlik yaranıb. Fikir verin, tələbələrin şəklinə baxın, universitetə gələn kimi şəkil çəkir və partanın üstündə nə olsa yaxşıdır, iki bahalı telefon, yanında bahalı siqaret və yanında maşın açarı. Bu tələbə oxumağa gəlir, yoxsa özünü göstərməyə?! Və yaxud çayxanada dostları ilə görüşən insanların çəkdiyi şəkillərə baxın. Eynilə həmin şeylərdir. İnsanlar sadəcə geyimi ilə özlərini göstərirdilərsə, indi smartfonları, maşınları ilə özlərini göstərmək istəyirlər. Anlamırlar ki, bütün dünyada artıq minimalizm dəbdədir və insanlar hətta xarici ölkələrdə insanlar smartfondan qurtulmaq və sadə həyatı minimal tələblərə uyğun yaşamağa üstünlük verirlər. Meşəyə gəzməyə gedirlər, muzeylərə, kinoteatrlara, teatrlara üz tuturlar. Bizdə isə əksinədir. Özümüzü dünyanın ən yeni texnologiyaları ilə bir növ kəməndə atmış oluruq. Bununla da, həm öz şəxsi məlumatlarımızı, həm həyatımızı, həm də ümumiyyətlə, vaxtımızı, zamanımızı sağlamlığımıza ziyan vuran addımlara xərcləyirik.

Son vaxtlar smartfonların mənfi nəticəsindən cavan uşaqlarımız evlənirlər və uşaq dünyaya gətirə bilmirlər. Oğlanlarımız da normal kişilik funksiyalarını yerinə yetirə bilmirlər. Əgər mənə inanmırsızsa səhiyyənin məhz övladlığa və yaxud ailənin artımına cavab verən şöbələrinə müraciət edin. O həkimlər ki, seksopatoloqdur, psixoloqdur, onlarda çox dəhşətli faktlar var".



**Sosioloq, Sağlam Cəmiyyət Hərəkatının sədri Lalə Mehralı:** "İki telefon məsələsinə daha çox gizlilik, məxfilik tələb edən sahələrdə işləyən kişilərdə rast gəlmişəm. Tutalım, hərbidə işləyən tanışlar görmüşəm ki, işdə smartfona icazə yoxdur və sadə telefon işlədir. Yəni, adi bildiyimiz knopkalı telefonlardan. Smartfonu işdən sonrakı həyatında işlədir. Tutalım, günortaya qədər işdə olur, günortadan sonra smartfondan istifadə edir. Buna görə iki telefonu var.

Amma evdən gizlin iki telefon işlədən insanlar barəsində də eşitmişəm. Maşında, işdə saxladıqları barədə də eşitmişəm. Yəni, ailəsindən gizli istifadə edirsə, demək ki, iki səbəb ola bilər, ya ailəsindən gizli hər hansı bir işlə məşğuldur, ya da həyat yoldaşına xəyanətlə məşğuldur.

Ardı Səh. 11

ARAŞDIRMA

# Kişilər niyə iki telefondan istifadə edir?

**Əvvəli-Səh-10**

Bununla bağlı ola bilər, o telefonu işlədənlərin hərəsinin özünün haqlı səbəbləri olsun, amma gizli telefon işlətməyin məncə bunlardan başqa səbəbi ola bilməz. İşlə bağlı iki telefon işlətmək məsələsi başa düşüləndir. İcazə yoxdursa, yoxdur. Smartfonu işdən sonra işlədir və bunu gizli saxlamır. Amma, gizli formada ikinci telefonu işlədənlər də var ki, burada açıqlayıcı səbəblər nə olursa olsun, əgər gizlədirsə deməli yolunda getməyən nələrsə var.

Müasir smartfonlarda bir telefonda iki sistem işlətmək qaydası da var ki, iki telefon əvəzinə bir telefonda iki sistem işlətmək real olur. Yəni, istəsə iki telefon işlətmək istəmir, amma əslində bunu gözdən pərdə asmaq üçün deyir. Lakin, bir telefonda iki sistem idarə edə bilir. Ev əhalisinin bu ikinci sistemdən xəbəri yoxdur. Bu gizli formada olur".



**Psixoloq Mahuxanım Teymurova:** "Niyə bəzi kişilər iki telefon istifadə edir? Bunun altında hansı səbəblər yatır? Bəziləri deyir ki, guya biri iş üçün nəzərdə tutulmuş telefondur. Hər kişi fərqli məqsəd üçün iki telefondan istifadə edir. Birincisi ola bilər ki, iş telefonu olsun. İkincisi bəzi insanlar ilk aldığı telefonu xatirə saxlayırlar. Üçüncü ehtimal isə "Aldatmaq".

Cütlüklərdən birinin başqa bir insanla emosional əlaqəyə girməsinə xəyanət deyilir. İnsanlar həyatındakı fiziki və emosional boşluqları doldurmaq üçün aldadırlar. Həyat yoldaşlarını aldatan kişilər qadağa olunan münasibətlərini gizləməyə çalışarkən çox diqqətsiz davranırlar. Həyat yoldaşını aldadan kişilər, ilk olaraq telefonlarına parol qoyaraq başlayırlar və aldadanda telefonlarını onlara göstərməmək üçün səy göstərirlər. İkinci bir telefon alırlar və yeni telefonunu həyat yoldaşından gizlədirlər. Bəzən ikinci bir sim kartı alırlar və bu sim kartı həyat yoldaşlarından gizlədirlər. Telefonlarında olan zəngləri və zəng qeydlərini daim silirlər.

### Bəs niyə aldadırıq?

Hər bir insanın güvənə, sevgiyə, yaxınlığa, heyranlığa ehtiyacı var. Münasibətlərində bu ehtiyacları tapa bilməyən fərd bir axtarışa gedə bilər və bunu tapanda həmən insanla birlikdəliyi olur. Lakin bu qısa müddətli bir həll yaradır. Biraz müddət keçdikdən sonra ona qarşı əvvəlki sevgi olmur...

Bəzi insanlarda şəxsiyyət pozğunluğu var və bu insanlar aldatmağa meyillidirlər.

Aldatma duyğual və cinsi ola bilər. Duyğusal aldatma qadınlarda daha çox görünür. Cinsi aldatma isə ən çox kişilər tərəfindən olur və kişi həyat yoldaşını yalnız cinsi yolla aldadırsa bunun əsasında intiqam hissləri var".



**Azərbaycan Uşaqları İctimai Birliyinin hüquqşünası Fariz Əkbərov:** "Ailə dəyərlərinə görə telefonla olunan xəyanət də xəyanət sayılır. Lakin, hüquqi müstəviyə baxdıqda, nikah könüllüdür. Yəni, hər insanın seçim hüququ var. Ola bilər ki, bir insan digəri ilə 5 il yaşasın və münasibətləri normal olmasın, fikirlər üst-üstə düşməsin. Lakin, hüquqi müstəvidə nikahda ola-ola xəyanət etməyin hər hansı bir cəzası yoxdur. Əgər bu xəyanət yalnız telefon üzərindədirsə bu zaman heç bir cəza tətbiq olunmur. Lakin, əgər şəxsin telefonunda xəyanət etdiyi şəxslə erotik və pornoqrafiq video səhnələri varsa bu zaman şəxsin həyat tərzi əxlaqsız həyat tərzi kimi nəzərə alınır". Məsələ ilə bağlı şəhər sakinlərinin də fikirlərini öyrəndik:

**Şəhər sakini Fidan Məmmədova:** "Kişilərin ikinci telefon işlətməsində bəhanə iş olsa da, amma əsas səbəb xəyanətdir. Əsasən o telefonu maşında və ya evdə gizlin bir yerdə saxlayırlar. Yəni iş üçün istifadə edən ikinci nömrə vasitəsilə də idarə edə bilər. Artıq ikinci telefonda əlavə işlər olur. Hətta, əlavə "İnstagram" işlədib gizli girib çıxış edə bilirlər. Bu isə onların xəyanətinin ən asan üsuludur".

**Şəhər sakini Ziya Hikmətoğlu:** "Cəmiyyətimizdə bəzi kişilərdə biz müşahidə etmişik ki, iki mobil telefondan istifadə edirlər. Bunun səbəbini soruşduqda isə müxtəlif cür bəhanələr dilə gətirirlər. Bu bəhanələrin sonunda isə ailədə problemlərin üzə çıxdığını görürük. Nəticədə, boşanma və ya ayrılıq hadisələrinə şahid oluruq. Mənim fikrimcə, bir mobil telefondan istifadə etmək gözəl olar".

**Şəhər sakini Zərintac Mayisqızı:** "Bir çox kişilər iki telefondan istifadə edir. Bu işlə bağlı ola bilər. Lakin, bəzi kişilər isə ikinci telefonu xəyanət üçün istifadə edir. Bu danılmaz bir həqiqətdir. Lakin, bu hərkəsə şamil olunmur".

**Şəhər sakini Şəbnəm İsgəndərova:** "Düşünürəm ki, bəzi kişilərin iki telefon işlətməsi normal haldır. Çünki, insanın ikidən çox nömrəsi olduqda avtomatik olaraq ikinci bir telefona ehtiyyac duyulur".

**Şəhər sakini Sevil Sultanova:** "Bəzən xanımlar, kişilərin bunu xəyanət etmək üçün istifadə etdiklərini deyirlər. Amma mən belə düşünmürəm. Mənə görə bunun tək səbəbi elə qadınlardır. Kişilər kifayət qədər azad həyat sürürlər və evlənən kimi qadın çökür boğazına ki, "Facebook"a niyə çox girdin?", "İnstaqram"da aktivsən kimə yazırsan?" və s. Bu halda da azad həyat sürən kişi bezir. Tək çarəni isə gizlin ikinci telefon işlətmək, saxta profillər istifadə etmək kimi hallarda görür. Qadınlar kişilərə inansa və onlara şübhə ilə yanaşmaq yerinə inamla yanaşlar belə olmaz".

***Ayşən Vəli***

---

*Ermənistan və İran tərəfi aldadıcı fantaziyaları arxasınca qaçarkən, növbəti dəfə real şanslarını əllərindən buraxmış olurlar*

# Fars körfəzi-Qara dəniz "dəhlizi": utopik xəyal dalınca qaçarkən

İran və Ermənistan arasında Fars körfəzi-Qara dəniz "beynəlxalq nəqliyyat dəhlizi" ətrafında illüziyalara qapılmaları, üstəlik, Azərbaycanın bu layihədən kənarda qalacağı barədə qərar vermələri, əslində, ölkəmiz üçün heç bir mənfi tendensiyalar vəd etmir. Belə ki, Azərbaycanın regional iqtisadi layihələrdə öncüllük təşkil etməsi, həmçinin, aparıcılıq funksiyalarını reallaşdırması sözügedən "dəhliz" planlarını dəfələrlə üstələyir. Bu zaman sual yaranır ki, İran və Ermənistan Fars körfəzi-Qara dəniz utopiyalarının reallaşacağına nəyə görə bu qədər ümid bəsləyirlər? Ümumiyyətlə, bu "dəhlizin" yaradılması həmin ölkələrə hansı dividendləri gətirə bilər? Çünki onun ərsəyə gətirilməsi üçün kifayət qədər zamana, maliyyəyə ehtiyaclar var və bu ölkələrin istər zaman, istərsə də maliyyə potensiallarını hesablayarsaq, adıçəkilən planın qısa zamanda realizə olunması qeyri-mümkün görünməkdədir.




### Təkcə Ermənistan-İran dəmir yolunun tikintisinə 2 milyard dollar tələb olunur!

"Səs" qəzeti olaraq bir sıra mülahizələrimizi önə sürdük və araşdırmalarımızı apardıq. Belə ki, təkcə Ermənistan-İran dəmir yolunun tikintisinə 2 milyard dollar tələb olunur. Tələb edilən maliyyə dəstəyini kim, necə və hansı yollarla göstərəcək - bu da aydınlaşmayıb.

Digər tərəfdən, nəzərə alsaq ki, sözügedən layihə Gürcüstan, Rusiya və Ukrayna üçün əhəmiyyətlidir və İranla Gürcüstanın limanlarını birləşdirmək imkanını yaradır, eləcə də Abxaziya dəmir yolu işlək vəziyyətə gətirilərək, Rusiya Hindistandan olan məhsulları qısa yolla gətirə bilər, amma buna baxmayaraq, Rusiya kənarda qalır.

### Ukraynanın və Gürcüstanın Rusiya ilə eyni kontekstdə xatırlanması ümumiyyətlə, qeyri-mümkünlük təsirini bağışlamaqdadır

Dəmir yolunun Abxaziya üzərindən Gürcüstan üçün əhəmiyyətinə gəlincə isə bu iddia kifayət qədər absurd görünür.

O cümlədən, Ukraynanın və Gürcüstanın Rusiya ilə eyni kontekstdə xatırlanması da ümumiyyətlə, bilavasitə qeyri-mümkünlük təsirini bəri başdan bağışlamaqdadır.

### Beləliklə, hansı nəticələr hasil olunur?

Mahiyyətcə Fars körfəzi-Qara dəniz "layihəsi" təkcə Rusiya, Türkiyə və Azərbaycan tərəfindən təklif (əslində tələb-R.R.) edilən alternativ kommunikasiyalar qarşısında sadəcə utopik xəyal, ya da xülyalı təsəvvürlərə hesablanmış fantaziyadır.

Beləliklə, Ermənistan və İran tərəfi aldadıcı fantaziyaları arxasınca qaçarkən, növbəti dəfə real şanslarını əllərindən buraxmış olurlar.

***Rövşən RƏSULOV***



## YAP Səbail rayon təşkilatının nümayəndələri iki şəhidin ailəsinə baş çəkiblər

YAP Səbail rayon təşkilatının sədri Muxtar Nağıyev və aparat əməkdaşları Vətən müharibəsi şəhidləri Qurbanov Murad Asif oğlu və Ağayev Cavidan Mirzağa oğlunun Səbail rayonunda yaşayan ailə üzvləri ilə görüş keçirib.

Qəhrəman şəhidlərin ailə üzvləri dövlət tərəfindən onlara göstərilən diqqət və qayğıdan razı olduqlarını dilə gətiriblər. Onlar, Ali Baş Komandan Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya və Yeni Azərbaycan Partiyasına (YAP) təşəkkürünü bildiriblər.

***R. Kamalqızı***

## Vətən müharibəsi qazisi Rais: Müsəlləh əsgərəm, döyüşə hazıram!

***Bu günlərdə Qobustan rayonunun Ərəbqədim kəndində toyda iştirak edirdim. Ömrümün ən duyğulu, kövrək və sevincli anlarından birini yaşadım.***




Gördüyüm mənzərə məni həm qəhərləndirdi, həm də sevindirdi. İkinci Qarabağ müharibəsində ayağının birini itirmiş qazi Rais "Süleymani" havası ilə yaralı qardaşı Zöhrabla oynayaraq məni rəqsə dəvət edirdi. Şükür sənə İlahi! Bu Raisdir? Bəli, rəqs edən Rais idi. Əlbəttə, mən onlarla rəqs elədim, Rais mənə: -Müəllim, Siz deyən oldu. Biz birgə oynadıq. Mən ona: - Prezidentimiz deyən oldu! Mən 18 dekabr 2020-ci ildə qazi Raisi ziyarət edərkən onunla söhbətimizi xatırladım. Hər iki qardaş Vətən müharibəsi başlayan kimi könüllü olaraq cəbhəyə yollanmışdır. Rais Vətən müharibəsində döyüşlərdə yaralanaraq ayağının birini itirmişdi. Pərviz Şuşanın alınmasında da iştirak edərək yaralanmışdı. Mən onlarda olan Vətən sevgisi, vətənpərvərlik, inam və ümiddən qürur duydum. Görüşümüzün sonunda mən Raisə bildirdim ki, narahat olma, hər şey yaxşı olacaq, Cənab Prezidentimiz Qarabağ qaziləri ilə görüşü zamanı onlara bildirdi ki, narahat olmayın, sizin səhətinizdə yaranan problemlər tezliklə aradan qalırılacaq, dövlətin sizə olan diqqət və qayğısı əbədidir. Mehriban xanım xaricdən Sizin üçün elə protezlər gətizdirib ki, geyin get futbol oyna. Mən Raisə dedim ki, bəli, sən də həmin protezlərdən geyinəcəksən, səhhətində olan bütün problemlər aradan qaldırılacaq və sağlam həyata qayıdacaqsan. Çox qısa bir müddət ərzində ölkə Prezidenti Cənab İlham Əliyevin, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın qayğıları sayəsində Raisin və Qarabağ müharibəsində yaralanmış qardaşı Pərvizin səhhətindəki problemlər aradan qaldırılmış onlar sağlam həyata qayıtmışlar. Qazi Süleymanov Rais Əzizxan oğlu ölkə Prezidenti İlham Əliyevin sərəncamları ilə "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif olunmuşdur. İkinci Qarabağ müharibəsində şücaət göstərərək qəhrəmancasına vuruşmuş Süleymanov Pərviz Əzizxan oğlu isə ölkə Prezidentinin sərəncamları ilə "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", Qubadlının azad olunmasına görə", " Xocavəndin azad olunmasına görə" , Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

03 oktyabr 2021- ci il. Görüşümüzün sonunda Rais dedi: - Mən Mehriban xanım Əliyevaya minnətdaram ona görə ki, mənim itirdiyim ayağımı, sağlamlığımı mənə qaytardı. Prezidentimə minnətdaram ki, mənə bu avtomobili hədiyyə etdi. Müsəlləh əsgər kimi Ali Baş komandanın hər bir əmrinə müntəzirəm, döyüşməyə hazıram! Qarabağ Azərbaycandır!

***Rəfiqə***

## YAP Qobustan rayon təşkilatının rəhbərliyi şəhid Xalid Mecdunovun məzarını ziyarət edib




***05 oktyabr 2021-ci il Yeni Azərbaycan Partiyası Qobustan rayon təşkilatı sədrinin səlahiyyətlərini icra edən Füzuli Gülaliyev və YAP fəalların iştirakı ilə Vətən uğrunda gedən döyüşlərdə torpaqlarımızı işğaldan azad edərək xalqımıza Qələbə sevinci bəxş edən, bu yolda canından, qanından keçən Qobustan rayonu Poladlı kəndindən şəhid olmuş Xalid Mecdunovun ildönümü münasibətilə məzarı ziyarət olunub.***

Tədbir iştirakçıları şəhidin məzarı önünə tər gül dəstələri düzüb, onun əziz xatirəsinə ehtiramlarını bildiriblər. Daha sonra Vətən müharibəsi şəhidlərinin əziz xatirəsinə dualar oxunub, xatirələri bir dəqiqəlik sükutla yad edilib. Şəhidin ailəsi ziyarət edilib, Ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın işğaldan azad olunması uğrunda gedən döyüşlərdən bəhs edilib. Bildirilib ki, şəhid Xalid Mecdunov kimi qəhrəmanlarımızın xatirəsi hər zaman yaddaşlarda qalacaq.

***Rəfiqə***

## YAP Şabran rayon təşkilatının nümayəndələri Şəhid Xəyal Həsənovun ailəsini ziyarət ediblər






Yeni Azərbaycan Partiyası Şabran rayon təşkilatının nümayəndələri Vətən müharibəsi şəhidi Xəyal Həsənovun ildönümündə ailəsini ziyarət edib, qayğıları ilə maraqlanıblar.

Mərasimdə Şabran Rayon İcra Hakimiyyəti başçısı Asif Hüseynov, YAP Şabran rayon təşkilatı sədrinin səlahiyyətlərini icra edən Mehdi Balabəyov, YAP Şabran rayon təşkilatının əməkdaşları, rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər. Mərasimdə vurğulanıb ki, bütün şəhidlərimizin əziz xatirəsi hər zaman Azərbaycan xalqının qəlbində yaşayacaqdır.

Sonra YAP Şabran rayon təşkilatının əməkdaşları tərəfindən şəhidin qəbri ziyarət edilib, məzarı üstünə tər güllər düzülüb.

## Qəbələ rayonunda Vətən müharibəsi şəhidləri yad edilib




44 günlük Vətən müharibəsi şəhidləri - Bum qəsəbə sakini Süleymanov Vasif Akif oğlunun və Tüntül kənd sakini Kərimov İsmayıl Abbas oğlunun şəhidlik zirvəsinə ucalmasının ildönümü münasibətilə rayon icra hakimiyyətinin, YAP Qəbələ rayon təşkilatının, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə, təşkilatların rəhbərləri və şəhidlərin təhsil aldıqları məktəblərin kollektivləri hər iki şəhidin məzarını ziyarət edərək, üzərinə gül dəstələri qoymuş, xatirələri anılaraq, ruhlarına dualar oxunmuşdur. Həmçinin, şəhid Süleymanov Vasif Akif oğlunun xatirəsinə Bum qəsəbəsində ucaldılmış bulaq kompleksinin açılışı olmuşdur. Hər iki şəhidin ailəsini mərasim iştirakçıları evlərində ziyarət etmişlər. Şəhidlərin ailə üzvləri dövlət tərəfindən göstərilən diqqət və qayğıya görə Ali Baş Komandan İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildirmişlər.

***Rəfiqə***

# İranı narahat edən nədir?

***Azərbaycanın bütün qonşuları ilə, region dövlətləri ilə, bütövlükdə bütün dünya ölkələri ilə mehriban münasibətlər, dostluq münasibətləri qurmaq istəyi, həm də münasibətlərini durmadan inkişaf etdirmək niyyəti hamıya bəllidir. Bu öz təsdiqini qlobal layihələrin gerçəkləşməsində artıq tapıb və hələ də ölkəmizin yeni-yeni regional və qlobal layihələr üzərində çalışması, əlaqələrin daha da genişləndirilməsi istiqamətində atılan addımlar bir daha isbat edir ki, Azərbaycan hər zaman münasibətlərin daha da yaxşılaşdırılmasına, inkişafına çalışır. Cənub qonşumuz olmasına görə, eyni dinə mənsub olmağımız, 30 milyon azərbaycanlının bu ölkədə yaşaması səbəbindən isə Azərbaycan İranla hər zaman səmimi olub, sağlam münasibətlər qurmaq istəyib və bu istiqamətdə də doğru addımlar atıb. Yəni, Azərbaycan qonşuluq siyasətinə həssas yanaşıb, heç bir zaman, biri də İran olmaqla, qonşu dövlətlərin maraqlarına zidd hərəkət etməyib, onlara ziyan dəyməməsinə çalışıb.***

Tarixi faktlar da təsdiq edir ki, Azərbaycan öz cənub qonşusunun maraqlarına zidd bir addım belə atmayıb, əksinə, daim müdafiə edib, qoruyub. Məsələn, ABŞ-İran münasibətlərində gərginliyin pik həddə, hətta müharibə həddinə çatdığı bir dövrdə, İrana hücum məqsədi ilə Azərbaycan ərazisində rəsmi Vaşinqtonun hərbi baza yaratmaq, 30 milyonluq azərbaycanlı faktorundan istifadə etmək, daha dəqiq desək, bu faktordan yararlanmaq istədiyi bir məqamda, düz 15 il bundan öncə, 2006-cı ildə ölkə rəhbəri, Prezident İlham Əliyev bəyan etmişdi ki, Azərbaycan ərazisindən istifadə edərək onun qonşusunun hədəfə alınmasına qətiyyən imkan verilməyəcək. Dövlət başçısının bunu bəyan etməsi təsdiq edir ki, Azərbaycan cənub qonşusunun ərazi bütövlüyünə hörmətlə yanaşıb, Azərbaycan xalqı öz müsəlman qardaşlarına qarşı pis niyyətdə olmayıb və cənab Prezident İlham Əliyevin bunu Vaşinqtonda media mənsubları qarşısında bəyan etməsinin təkcə İran deyil, bütün dünya dövlətləri və vətəndaşları şahidi oldular.








Məsələ burasındadır ki, İran buna heç zaman adekvat cavab vermədi. İstər işğaldan azad etdiyimiz ərazilərimizin işğalda saxlanıldığı dövrdə, istərsə də işğala son qoyulandan sonra İran Ermənistana dəstək verdi. İslam dövləti kimi özünü elan edən İran müsəlman qardaşı hesab olunan, hüquqları tapdalanan, ermənilər tərəfindən işğala məruz qoyulan, haqlı olan Azərbaycan xalqını deyil, xristian erməniləri, təcavüzkarları, işğalçıları, terrorçuları, günahkarları dəstəklədi. Qonşu dövlətin, Azərbaycanın torpaqlarının 20 faizi işğala məruz qalanda da, bir milyon müsəlman əhali ev-eşiyindən, yurd-yuvasından qovulanda da, erməni terrorçuları tərəfindən Xocalı kimi bir qətliam, soyqırım törədiləndə də müşahidəçi mövqe seçdi, bu qanunsuzluqlara, bu vəhşiliklərə, vandallıqlara qarşı olmadı. Əksinə, torpaqlarımızı işğalda saxladığı 30 il ərzində bölgədə marginallaşan Ermənistana istər siyasi, istər iqtisadi, istərsə də maddi və mənəvi dəstəyini İran əsirgəmədi, hansı ki, bunun sayəsində Ermənistan bu qədər uzun müddətdə ərazilərimizi işğalda saxlamaq üçün direniş göstərdi. Bir növ İran torpaqlarımızın işğalda saxlanılması üçün əlindən gələni əsirgəmədi. Çünki iqtisadi sıxıntı keçirən, səfalət içərisində olan bir topluma, işğalçı ermənilərə siyasi, iqtisadi, maddi, mənəvi kömək etməklə bir növ onların bu yoldan məcburi də olsa çəkinməsinin qarşısını aldı.

Ən dəhşətli fakt isə ondan ibarətdir ki, özünü islam dövləti elan edən İran müsəlmanlara deyil, müsəlman məscidlərini dağıdanlara, müsəlmanın müqəddəs saydığı ibadət yerlərini murdarlayanlara, hörmətsizlik edərək həmin yerlərdə heyvan, özü də müsəlmanın haram hesab etdiyi donuzu saxlayanlara yardım etdi. Bu dövlət, yeni İran İslam Respublikası adında bir ölkə məscidlərə qarşı belə hörmətsizliyə göz yumaraq, bu hörmətsizliyi edənlərlə dəstək verməklə, necə islam dövləti ola bilir, bu da tamamilə ayrı bir müzakirə mövzusudur. Çünki islam ölkəsi üçün məscidin nə qədər müqəddəs hesab olunmalı olduğu dünyada belə hər kəsə bəllidir, nəinki müsəlman ölkələrinin vətəndaşlarına. Elə isə İranın bu addımına nə ad verməк olardı? Yaxud, İran vətəndaşları buna görə niyə ayağa qalxıb dövlətdən bu hörmətsizliyə və ümumiyyətlə, mövqeyinə görə hesab sormadı, ən azından sual ünvanlamadı? Düşündürücü suallardır, amma ümid edirik bu suallar tezliklə veriləcək və İran bu suallara cavab verməli olacaq.

İran Azərbaycandan hansı pislik görmüşdü ki, Azərbaycan xalqı, Azərbaycan Ordusu cənab Prezidentin rəhbərliyi altında zəfər yürüşünə başladığı zaman və 44 günlük savaş zamanı bu dırnaqarası islam ölkəsi xristian ermənilərə, müsəlman abidələrini dağıdan vandallara, terrorçulara xəlvəti yollarla hərbi yük karvanları keçirirdi? Məqsəd nə idi? Yoxsa, müsəlmanların, azərbaycanlıların ardıcıl qələbələri İranı narahat edirdi? Elə deyildisə, niyə Azərbaycanın, Azərbaycan xalqının bir-birinin ardınca qazandığı qələbələrinə mane olmaq istəyirdi? Hərbi yük karvanları vasitəsilə Ermənistana nə daşıya bilərdi axı İran? Hərbi əməliyyatların getdiyi vaxtda hərbi maşınları Ermənistana ötürən İran bu davranışını nə ilə əsaslandıra bilər? Bu suallara cavab tapmaq əvəzinə, Azərbaycan tərəfinin öz torpaqlarını işğaldan azad etməsindən sonra cənub qonşusu ilə sərhəddi bərpa etdiyi zaman İranın Araz çayı sahillərinə qoşun çıxarması, guya narahatlıq keçirməsi çox gülünc görünür. Çünki işğal dövründə, yəni 30 ilə yaxın müddətdə, bu ərazilərin tamamilə nəzarətsiz olduğu bir zamanda terrorçuların hərəkətlərinə, qaçaqmalçılıqla narkotik vasitələr daşınmasına görə İran bircə dəfə də olsun narahatlıq keçirmədi, nə də sərhədinə, Araz çayı sahilinə qoşun çıxarmadı. Bir sözlə, İranın davranışlarında uyğunsuzluq kəskin şəkildə özünü büruzə verir.

Daha bir təəssüf doğuran məqam isə İranın xarici işlər naziri Hüseyn Əmir Abdullahianın İrəvana sonuncu rəsmi səfəri çərçivəsində erməni həmkarı ilə görüşdən sonra media qarşısında çıxışı zamanı dedikləridir. "İran öz qonşusu Ermənistanla münasibətlərinə hansısa xarici ölkənin zərər vurmasına imkan verməyəcək və hər iki ölkə arasında iqtisadiyyat, ticarət, turizm, tranzit yükdaşımaları sahəsində əməkdaşlıq daha da genişləndiriləcək", deyən Hüseyn Əmir Abdullahian bunu söyləməklə nəyi nəzərdə tutur? İran tərəfi nədən narahatdır? Bəlkə Azərbaycanın öz ərazi bütövlüyünü təmin etməsindən İran narahatlıq keçirir? Yoxsa, İran öz qonşuluğunda haqlarını, hüquqlarını, süverenliyini, torpaqlarını, sərhədlərini, ərazi bütövlüyünü qorumaq iqtidarında olan Azərbaycanı gördüyünə görə narahat olub? İran bu yerdə Ermənistanı görməkmi istəyirdi? Suallar həddindən artıq çoxdur, amma ən düşündürücü məqam İranın niyə Ermənistanı seçməsi, niyə dini bir olan azərbaycanlılara deyil, ermənilərə tərəf meyilli olması, onları dəstəkləməsidir. Buna səbəb nə olduğu da suallar doğurur. Axı hər şey bir tərəfə, səfalət içində olan Ermənistan deyil, iqtisadi yüksəlişdə olan qüdrətli Azərbaycan İranın özü üçün maraqlı olmalı idi. Amma "İran Ermənistan üçün nəfəslik rolunu oynayır", deməklə, baş nazir Nikol Paşinyan İranın Ermənistanla əlaqələrinin, münasibətlərinin nə dərəcədə olduğunu təsvir edib və deməli, maraqların tamam başqa olduğu qənaətinə gəlməkdə hər kəs haqlıdır.

Məsələ burasındadır ki, Ermənistanla münasibətlər İran üçün əhəmiyyətli, faydalı ola bilməz. Əvvəla Ermənistanda İran üçün əhəmiyyətli ola biləcək heç nə, heç bir məhsul yoxdur. Digər tərəfdən də axı 44 günlük müharibədən sonra Ermənistan tamamilə sarsıldı və indi Ermənistan istənilən ölkə üçün çox maraqsız bir tərəfdir. Hətta illər boyu bu ölkəni müdafiə edən, ermənilərin ayaqda qalmasını təmin edən Rusiyanın belə işğalçı ölkədən imtina etdiyi göz önündədir. Yaxşı, bəs onda İran hansı səbəbə yenə də Ermənistanı dəstəkləyir? Bu ölkələri nə din, nə dil, nə də tarixi əlaqələr bağlamır axı. Əksinə, ən azından İranın Azərbaycanla, Türkiyə ilə, Pakistanla, ərəb ölkələri ilə dini bağlılığı var və yenə də maraqlı məqam odur ki, məhz bu ölkələri İran özünə düşmən, ən azından rəqib hesab edir. Bu, bir həqiqətdir, reallıqdır ki, İran İslam Respublikası adında cənub qonşumuz olan ölkənin heç bir müsəlman ölkəsi ilə münasibətləri normal deyil. Elə isə, bu necə islam dövlətidir?...

*"Gürcüstanda nahaq yerə hesab edirlər ki, bənzər antierməni davranışları onların rahatlıqlarını pozmayacaq". Bu fikirlərlə Ermənistanın armenianreport analitik informasiya agentliyi "Xain gürcülər antierməni bayraqları altına keçiblər" başlıqlı məqalə ilə çıxış edib və sözün əsl mənasında, Gürcüstanın Azərbaycan və Türkiyə ilə dostluq və mehriban qonşuluq münasibətlərinə qarşı hədəflənib, bu ölkənin ərazi bütövlüyünə separatçı baxışları ilə seçilib.*




# Erməni KİV-ləri Gürcüstana qarşı ərazi iddiası irəli sürdülər



## Gürcüstanın Azərbaycan ilə dostluq və mehriban qonşuluq münasibətləri ermənilərin Cavaxetiya hədəsi ilə cavablandırılır

ANALİTİKA

Bəli, söhbət Gürcüstanın ayrılmaz tərkib hissəsi olan Cavaxetiyasından gedir. Həmin Cavaxetiyadan ki, yerli ermənilər və bütövlükdə Ermənistan bu əraziləri "Kiçik Ermənistan", deyə adlandırırlar.

### Bu, əslində, daşnak düşüncə tərzidir və "pişiyin ağzının ətə çatmaması" misalıdır

Erməni analitiki Tevos Arşakyan sözügedən məqaləsində yazıb ki, bu gün Gürcüstanın dövlət rəhbərliyinin Azərbaycanla əlaqələrini möhkəmləndirməsi, eləcə də bir çox sahələrdə əməkdaşlıq etməsi açıq-aşkar erməniləri hiddətləndirir. Halbuki, Gürcüstan suveren və müstəqil ölkədir, bu ölkənin hansı qonşuları ilə necə davranışlarına üçüncü tərəflərin burun soxmalarına isə gərək yoxdur. Amma...




Amma daha bir fakt budur ki, ermənilər nəinki Gürcüstanı, eləcə də işğaldan azad olunmuş ərazilərimizə səfərlər etmiş Ukrayna jurnalistlərini və blogerlərini də hədəfə götürərək guya (!) Azərbaycanın onları "pulla ələ aldığını" sərsəmcəsinə iddia edir.

Bu, əslində, daşnak düşüncə tərzidir və "pişiyin ağzının ətə çatmaması" misalıdır. Nədənsə, erməni analitiki yüngül beyni ilə dərinliklərin ağırlığına varmayaraq hesab etmir, ya da hesab etmək istəmir ki, istər gürcülər, istərsə də ukraynalılar ədalətin yanında dayanırlar və ortada heç də maddi maraqlar dayanmayıb, ortada mövcud olan ədalət prinsipidir!

### Əgər bu gün Ukrayna və Gürcüstan kütləvi mediasında anti-Ermənistan xarakterli açıqlamalar, məqalələr, rəylər və bəyanatlar işıq üzü görürsə, bu, səmimiyyətdən irəli gələn gerçəkliklərdir

Bu ədalət prinsipinə Azərbaycan da hörmət edir və əbəs deyil ki, Ukraynanın Krım torpaqlarının ilhaq olunması məsələsində Kiyevin mövqeyini tutur. O cümlədən, Gürcüstanın işğal altında qalan ərazilərini - Abxaziyanı və Cənubi Osetiyanı rəsmi Tbilisinin yuridiksiyası altında olduğunu bəyan edir.

Əgər bu faktor mövcuddursa, əlbəttə ki, qarşılıqlı davranış ukraynalı və gürcüstanlı insanlar tərəfindən də göstəriləcək. Bu baxımdan, özlərini bir tərəfdən "əzabkeş", "məzlum" kimi təqdim edən erməni-daşnak xislətli jurnalistləri digər tərəfdən həqiqəti rədd edərək, yalnız iyrənc ittihamları ilə çıxışlar etməkdədirlər.

Əgər bu gün Ukrayna və Gürcüstan kütləvi mediasında anti-Ermənistan xarakterli açıqlamalar, məqalələr, rəylər və bəyanatlar işıq üzü görürsə, bu, səmimiyyətdən irəli gələn gerçəkliklərdir və erməni yalanları əsla bu kimi məsələlərdə ayaq açıb yürüyə bilməz. Lakin mövzudan yayınmayaraq qayıdaq Cavaxetiya iddiasına.

### Gülünc və axmaq bir iddia ilə yalnız və yalnız bənzər erməni "analitikləri" çıxış edə bilərlər

Deməli, adıçəkilən Tevos Arşakyan bir az da irəli gedərək Gürcüstanın baş naziri İraqkli Qaribaşvilinin Bakıya səfərini "şərh" edərək iddia irəli sürüb ki, guya ona Bakıda "iki-üç milyon dollar rüşvət" verilib. Gülünc və axmaq bir iddia ilə yalnız və yalnız bənzər erməni "analitikləri" çıxış edə bilərlər-Arşakyanın tipində!

Təkcə onun yazısındakı bu ifadələrə diqqət yetirək və doyunca gülək: "Təbii ki, buna görə (Qaribaşvilinin Bakıya səfərini nəzərdə tutur-R.R.) Əliyev Qaribaşvilidən bir xidmət göstərməyi xahiş edib. Bəs Bakı hansı hansı xidmətdi istəyib? Təbii ki, Ermənistana və erməni xalqına "duz səpməyi". Və Qaribaşvili gözünü qırpmadan buna razılıq verib..."

Ümumiyyətlə, illüziya və nağılları ilə farsları belə geridə qoymağı bacaran erməni "analitiklərindən" başqa cür hər hansı sərsəm iddiaları gözləməyə də dəyməzdi.

O, bunu "Yuxarı Lars" sərhəd-keçid məntəqəsində erməni furalarının buraxılmaması ilə əlaqələndirib, halbuki, həmin sərhəd-keçid məntəqəsindən digər ölkələrin də furaları keçmirlər, yaxud uzunmüddətli yoxlamalardan sonra buraxılırlar. Səbəb isə koronavirus infeksiyasının sürətlə yayılmasıdır.

### İddia irəli sürür ki, "antierməni" davranışları Gürcüstana "baha" oturacaqmış

Bütün bunları əlində "bayraq" edən erməni "analitiki" artıq ənənəvi olaraq hədələyici manevrə keçid edir. İdda irəli sürür ki, "antierməni" davranışları Gürcüstana "baha" oturacaqmış. Bəs nə baş verəcəkmiş?

Yenə də sitata müraciət edək: "Ermənistanın satqın gürcüləri yerində oturtmaları üçün kifayət qədər rıçaqları və vasitələri var. Onlardan biri - Cavaxdır. (İşğalçılıq və separatçılıq xəstəliyinə mübtəla olan ermənilər sırf və əzəli gürcü torpağı olan Cavaxetiyanı "cavax" adlandırırlar - R.R.). 30 illik "müstəqilliyi" (dırnaqlar bizimdir-R.R.) dövründə İrəvan "cavax" fəallarının orada yaşayan köklü çoxluq üçün (yəni ermənilər-R.R.) milli-mədəni muxtariyyət tələblərinə nail olmaları cəhdlərindən doğan atəşlərini söndürməklə məşğul olub. Ermənistanın onsuz da kifayət qədər problemləri olub və bizim hakimiyyətlər "cavax" icmasının çoxsaylı xahişlərinə rəğmən Tbilisi ilə münasibətlərini pozmaq istəmirdilər. İrəvan hətta Saakaşvilinin "cavaxda" bu torpaqların Ermənistana məxsusluğunu, dilini və dilini unutdurmaq üçün dinc əhaliyə qarşı kütləvi repressiyalar aparanda da susurdu. Ancaq indi "azərbaycanlılar tərəfindən pulla alınan gürcülər" (aşırı həyasızlığın dərəcəsinə baxın!-R.R.) bizi məcbur edirlər ki, "cavax" ermənilərinin "zülmlərinə" nəzər salaq və bu regionun Ermənistana inteqrasiyası məsələsi ilə məşğul olaq (???!!!-R.R.)".

### Və burada dost və qardaş gürcü xalqına, sadəcə, səbr, təmkin, iradə və möhkəmlik arzulamaq qalır...

Bax, budur gerçək, real, aşırı, hətta izafi erməni həyasızlığının bütün şkalaları aşan danılmaz sübutu! Hələ bu harasıdır? SİTAT: "Tbilisidə anlamalıdırlar ki, əgər "cavax" erməniləri Ermənistana birləşmək haqqında referendum keçirsələr, onun nəticələri gürcülər üçün məyusedici olacaq". Və burada dost və qardaş gürcü xalqına, sadəcə, səbr, təmkin, iradə və möhkəmlik arzulamaq qalır. Belə ki, erməni KİV-nin növbəti iddiası daha betər siyapurluğa söykənir: "Əgər daha da dərinə gedərsək, Tbilisi bilməyə məhkumdur ki, "cavax" ərazisindən qonşuları üçün mühüm strateji əhəmiyyətə malik Bakı-Tbilisi-Qars nəqliyyat dəhlizi keçir və yerli ermənilər İrəvanın delikant xahişi ilə onu blokadaya sala bilərlər. Bəs onda kim mənfi vəziyyətdə qalacaq?"

Təbii ki, Tevos Arşakyanın sərsəm və kifayət qədər axmaq iddiaları əsla keçərli deyil. Necə deyərlər, milçək iyrənc deyil, könül bulandırır, yaxud son vaxtların ən çox işlənən atalar sözü - it hürər karvan keçər.

Fəqət, bütün bunlara rəğmən, erməni KİV-lərinin, aparıcı medialarının bənzər fikirlərlə çıxış etmələri əslində bir daha sübut edir ki, qonşu ölkələrin torpaqlarına göz dikmək onların kirli qanlarına hopmuş bir gerçəklikdir. Xüsusilə, bu gün Azərbaycanın regiondakı üstün mövcudluğu, habelə Ermənistan istisna olmaqla bütün qonşuları ilə normal münasibət qurması, ancaq hər şeyə rəğmən, düşmənə belə sülh müqaviləsi imzalamaq dəvətini etməsi - bütün bunlar reallıqlardır.

Ancaq təbii ki, mənfi vəziyyətdə qalan da erməni müəllifinin iddia etdiyi kimi Gürcüstan deyil, məhz Ermənistandır. Təəssüf ki, bunu anlamayan erməni-daşnak düşüncəsi davam elədikcə, bu xalqın və dövlətin gələcəyi, hətta yaxın gələcəyi ya kölgəli görünür, ya da ümumiyyətlə, görünmür.

**_Rövşən RƏSULOV_**




# Rodion Panin: "Azərbaycanın qələbəsi xeyirin şər üzərində qələbəsi idi"



## *MDU-nun müəllimi : "Ağlı başında olan şəxs təcavüzkarın kim olduğunu və təcavüzün qurbanının kim olduğunu yaxşı başa düşür"*

Lomonosov adına Moskva Dövlət Universitetinin müəllimi Rodion Panin "Caliber" analitik mərkəzinə müsahibəsində Azərbaycanla bağlı təəssüratlarını və Qarabağ həqiqətləri haqda bildiklərini danışıb. Müsahibəni oxucularımıza təqdim edirik.

**- Rodion, bildiyimiz qədər Azərbaycana dəfələrlə səfər etmisiniz. Zəhmət olmasa, deyin, ziyarətlərinizin səbəbləri nə idi?**

- 2008-ci ildə professor Nərgiz Paşayevanın rəhbərlik etdiyi Moskva Dövlət Universitetinin Bakı filialı yaradıldı. Buna uyğun olaraq, Moskva Dövlət Universitetinin müəllimləri filial tələbələrinə dərs keçmək üçün Bakıya ezamiyyətə getməyə başladılar. Bakıya ilk səfərim 2009-cu ilin noyabrında baş tutdu və o vaxtdan bəri Azərbaycana on dəfədən çox səfər etdim.

**- Ölkəmizdə ən çox nəyi bəyənmisiniz?**

- Azərbaycanda harmoniya və ilk baxışdan birləşməsi çətin olan mədəni hadisələrin zərif, dinc birbirinə qarışmasını xoşlayıram. Mən "Qərb-Şərq" sivilizasiyalarının kəsişməsini deyil, həm də nadir qədim ənənələrin və müasir post-sənaye və informasiya texnologiyalarının simbiozunu nəzərdə tuturam.

**- Azərbaycan xalqının hansı xarakter xüsusiyyətlərini daha çox xatırlayırsınız?**

- Açıqürəklilik və qonaqpərvərliyi vurğulayardım. Bakıda həmişə çəkim bir neçə kiloqram artır, çünki fikrimcə, bir azərbaycanlının qonağını yorulana qədər doyurması şərəf işidir.

Həmişə kömək edəcək, soruşacaq, vəziyyətim necədir və buradakı hər şeyi bəyənirəmmi? Bakıdan sonra Moskvaya qayıtmaq mənim üçün həmişə çətindir, çünki ora çox soyuq və praqmatikdir.

**- Yeri gəlmişkən, Azərbaycanın mövqeyini şiddətlə müdafiə etdiyiniz Vətən Müharibəsi illərində sosial şəbəkələrdə necə aktiv olduğunuzu gördüm. Siz Rusiya vətəndaşı olaraq nəyi rəhbər tutdunuz?**

- Mən heç vaxt Bakıya ezamiyyətə bir növ məcburi öhdəlik kimi yanaşmamışam: gəldim, işlədim və getdim. Müqavilə üzrə birbaşa məsuliyyətimə aid olmayan hər şey məni maraqlandırmır.

Əksinə, mən həmişə ölkənin tarixi və mədəniyyətini daha yaxından tanımağa, insanların mentalitetini hiss etməyə çalışmışam. Təbii ki, Qarabağ probleminin tarixi mahiyyətinə qərq olan hər bir ağlı başında olan şəxs təcavüzkarın kim olduğunu və təcavüzün qurbanının kim olduğunu yaxşı başa düşür.

Tarix məktəbdən bəri kimyadan sonra ikinci sevdiyim sahədir. Bütün erməni nağıllarını asanlıqla təkzib etməyə imkan verən və qarşı tərəfdən fikir yürüdən adamları əsəbiləşdirən tarixi məlumatlılığım var.

İrəvan xanlığının tarixi abidələrinin dağıdılması, müasir Türkiyə ərazisində ilk xristian Osroen dövlətinin mövcud olması və Ermənistanla heç bir əlaqəsi olmaması ilə bağlı yazılarımı və materiallarımı dəfələrlə bloklamağa çalışdılar. Xoşbəxtlikdən uğursuz oldular.

**- Azərbaycanın qələbəsi sizin üçün nə oldu?**

- Azərbaycanın danılmaz hərbi və texnoloji üstünlüyə malik olması artıq 10 ildir ki, aydındır və 2016-cı ilin aprel müharibəsi bunu açıq şəkildə nümayiş etdirmişdi.

27 sentyabr 2020-ci ildə adi bir lokal hərbi əməliyyatın deyil, genişmiqyaslı bir əməliyyatın başladığı məlum olduqda, cəbhədə baş verənləri çox yaxından izləməyə başladım, hər gün hərbi rəyləri dinlədim və Azərbaycan ordusunun addım-addım əraziləri işğaldan necə azad etdiyini gördüm.

Buna görə də Azərbaycanın qələbəsi mənim üçün həm ölkənin texniki üstünlüyünü göstərmək baxımından, həm də xeyirin şər üzərində qələbəsinin humanist və tarixi qaçılmazlığı baxımından sevincli və tamamilə gözlənilən bir hadisə oldu.

**- Yenidən Bakıya gəlmək fikriniz varmı?**

- Əlbəttə, böyük məmnuniyyətlə, çünki Bakıda Moskvadan daha çox dostlarım var, onlar məni çox səbirsizliklə gözləyirlər və məni görməkdən həmişə şaddırlar.

Kiçik bir çatışmazlığım var- təyyarə ilə uçmuram, buna görə də ölkələrimiz arasında pandemiya səbəbindən kəsilən dəmir yolu əlaqəsinin açılmasını gözləyirəm.

**- Azərbaycan milli mətbəxində ən çox sevdiyiniz yemək varmı?**

- Sualınızla nöqtəyə vurdunuz! Bişirməyi çox sevirəm və hər hansı bir səfərdən həmişə bir neçə yeni orijinal resept gətirirəm. Təbii ki, Bakı da istisna deyil. Həmişə Bakıdan gələn dostlarımdan mənə Azərbaycan paxlavası gətirmələrini xahiş edirəm.

Tez-tez plovu özüm bişirməyi və evdə qonaqlarımla, iş yerində həmkarlarımla birlikdə yeməyi çox sevirəm. Dolma da məmnuniyyətlə bişirirəm, amma düzünü desəm, azərbaycanlı evdar qadınlar qədər kiçik bükməyə səbrim çatmır.

**- Azərbaycan xalqına arzularınız**

- Xalqınıza arzulayıram ki, seçilmiş düzgün yoldan dönməsin. Bütün dünya Azərbaycanın son illərdə necə dəyişdiyini, Bakının cəmi 10 il ərzində necə çiçəkləndiyini və gözəlləşdiyini, hər il ölkədə ən yüksək səviyyəli beynəlxalq tədbirlərin keçirilməsini görür. Azərbaycan zəngin keçmişə, bu gün sürətlə dəyişən və gələcəyə gedən yolu aydın görən mədəniyyətlərin, dünyaların və sivilizasiyaların bənzərsiz bir kəsişməsidir!

***Tərcümə: Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.***

# İranlı turistlərin İrəvana gəlişinin əsas səbəbi...

...Deməli, ermənilərin turizm komitəsi "Facebook" səhifəsində dünyanı ağuşuna alan koronavirus pandemiyasının yaratdığı çətinliklərə baxmayaraq, yay aylarında Ermənistanda turizm aktivliyinin qeydə alındığını bəyan ediblər. Belə ki, onların dediyinə görə, bu ilin təkcə yanvar-avqust aylarında 488 558 nəfərə yaxın xarici vətəndaş "turist" kimi Ermənistanı ziyarət edib.

Əlbəttə, bunu balaca bir ölkə üçün pis göstərici kimi təqdim etmək haqsızlıq olardı.



Etiraf edək ki, daha çox xaricdəki erməni miqrantların göndərdiyi maliyyə hesabına təşəkkül tapan erməni iqtisadiyyatı koronavirus səbəbindən iflasa uğraya bilərdi. Amma nə yaxşı ki, ermənilərin "tarixi abidələrlə zəngin" olan bir ərazisi və bu tarixi abidələrə baxmaq istəyən xarici turistləri varmış.

Maraqlıdır ki, bəzi erməni rəsmiləri yanvar-avqust aylarında Ermənistana gələn turistlərin say çoxluğundan, haradasa məmnunluq ifadə etsələr də, amma bəzi ölkə rəsmiləri bunu hələ ki, son göstərici kimi qəbul etmək istəmirlər.

Məsələn, ölkənin iqtisadiyyat naziri əvəzi Vahan Kerobyan... iddialıdır. Yəqin ki, yadınızda olar, o hələ bu ilin əvvəlində Ermənitana gələcək turistlərin sayında 319 faiz artım olacağını vəd etmişdi. Qeyd edək ki, bu gün Vahana bildirilən bəzi iradlara baxmayaraq, o hələ də dediklərində israrlıdır. Deyim ki, onu başa salmağa çalışsalar da, o nədənsə, başa düşmək istəmir ki, əgər arxada qalan 8 ay ərində Ermənistana 488 558 nəfər turist gəlibsə, qalan dörd, özü də soyuq qış aylarında Ermənistana bundan çox turist necə gələ bilər?

Əslində etiraf edilməsə də, bəzi ermənilər bu il Ermənistana gələn turitlərin say çoxluğunu qonşu Türkiyənin turist bölgələrində baş verən(?) yanğınlarla əlaqəli olduğunu yaxşı başa düşürlər.

Üstəlik, nəzərə alsaq ki, yayda turist axınının cüzi də olsa artması həmin turistlərin Ermənistana marağının bərpası ilə bağlı olan obyektiv bir proses deyil. Yadınızda olar, yay aylarında Ermənistan can atan "turistlərin" çox hissəsini İran vətəndaşları təşkil edirdi ki, bu da səbəbsiz deyildi. Çünki İranda qiyməti "ceyran belinə çıxan" koronavirusa qarşı peyvənd iynələrini ermənilər ölkəyə gələn turistlərə pulsuz vururdular. Təbii ki, bir çox iranlı bundan, yəni müftə peyvənd olunmaqdan yararlanmaya bilməzdi.

...Nə isə, mövzudan uzaqlaşmayaq...deməli, yenə də dediyimiz kimi, ölkənin iqtisadiyyat naziri əvəzi Vahan Kerobyan "turistlərin sayındakı 319 faiz artım" barədə dediklərindən dönmür. Maraqlıdır ki, bəziləri onun qalan dörd ay ərzində 700 min əcnəbinin tuist kimi Ermənistna gələ biləcəyinin xəyali bir arzu olduğunu ona anlatmağa çalışsalar da, amma o dediyindən dönmür ki, dönmür.

... Yəni Kerobyan israr edir. İlin sonuna qədər, turizmdən də gələn gəlir də daxil olmaqla ölkədə ikirəqəmli iqtisadi artım qeydə alacağını israr edir. Əslində, erməni erirafına görə, bu cür proqnozlar vermək üçün Vahanın heç bir obyektiv faktoru yoxdur. Amma burada yeganə arqument Kerobyanın "inadkar nikbinliyi"dir.

Ermənilərə görə, belə nikbin ilham mənbəyinin Kerobyanda haradan peyda olduğunu söyləmək çətin olsa da: " amma "bu nikbin ilhamı" ölkə iqtisadiyyatının dövlət tənzimlənməsi sahəsini sirk arenasına çevirən bacarıqsızın birində axtarmağa dəyər". Bunu da ermənilər Vahanla bağlı deyirlər.

***Ağasəf Babayev***

SON SƏHİFƏ
Səs
7 oktyabr
2021-ci il

# "Zəfər tarixinin canlı şahidi olduğum üçün qürur duyuram"



***"Bu, qalib Azərbaycan xalqının şanlı Zəfəri oldu". Bunu SİA-ya açıqlamasında "Davam" Gənclər Hərəkatının İdarə Heyətinin üzvü, idmançı Rasul Çunayev deyib. Onun sözlərinə görə, həm ölkə daxilində, həm də xaricdə yaşayan azərbaycanlıların hamısı Zəfər tarixi ilə bağlı olaraq qürur hissi keçirir.***

Rasul Çunayev bu haqda fikrini belə izah edib: "Mən də həm hərbiçi, həm idmançı və ən əsası Vətənini sevən bir insan olaraq Zəfər tarixinin canlı şahidi olduğum üçün qürur duyuram. Azərbaycan hər sahədə qələbələrə layiqdir. Azərbaycan gəncliyi üçün dövlət tərəfindən yaradılan şərait icazə verir ki, bütün istiqamətlər üzrə nailiyyətlər əldə edək, uğurlar qazanaq. Biz müasir gənclər Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşərək gənclər və idman siyasətində daim qalibiyyət əldə edəcəyik".

*Turqay Musayev*

# Az karbohidratlı pəhriz uzunömürlülərin qidası adlandırılıb

*Amerikalı alimlər bir heçə ildir ki, uzun ömür şansını maksimal dərəcədə artıran qida məhsullarından ibarət kombinasiya axtarışında idilər. AZƏRTAC "Medik-Forum"a istinadla xəbər verir ki, alimlərin fikrincə uzun ömür yaşamaq istəyənlər karbohidratlardan daha az istifadə etməlidirlər.*



olaraq karbohidratlardan çox istifadə etdikdə, onun orqanizmində yüksək metabolik yüklənmə müşahidə olunur. Karbohidratlı pəhriz artıq çəki, maddələr mübadiləsi problemləri, ürək və damar xəstəlikləri və hipertoniyaya səbəb ola bilər. Bəzi hallarda isə artıq karbohidratlar şişlərə də səbəb ola bilər. Az karbohidratlı pəhriz isə gəncliyin maksimal dərəcədə uzadılması və aktiv uzunömürlülüyü stimullaşdırır.

ABŞ-ın Bak İnstitutunun tədqiqatçıları qocalma və uzunömürlülük mexanizmlərini araşdırıblar. Məlumdur ki, insanın çox uzun müddət yaşamaq şansı iki faktordan asılıdır. Birincisi genetikadır və bununla bağlı biz heç nə edə bilmərik, axı genlər dəsti bizə valideynlərimizdən keçir, onu dəyişmək mümkün deyil. İkincisi isə, həyat tərzidir, yəni fiziki fəaliyyətin səviyyəsi, stresin göstəricisi və ən əsası qidalanmadır. Amerika Birləşmiş Ştatlarından olan tədqiqatçılar məhz uzunömürlülərin pəhrizini kəşf etməyə nail olublar.

Onlar müəyyən ediblər ki, insan aktiv

Aktiv uzunömürlülük dedikdə, insanın nisbətən sağlam olduğu qocalıq mərhələsi başa düşülür. Heç kim gəzməyə və özünə qulluq etməyə qadir olmayan çox qoca olmaq istəməzdi. Bir çox insan məhz aktiv və sağlam qocalığı xəyal edir. Tədqiqat ketogen pəhrizin bunun üçün ən uyğun olduğunu göstərib. Pəhriz yağların yüksək tərkibi və karbohidratların aşağı səviyyəsi ilə fərqlənir.

# Selfie ulduzu Qorilla həyatını itirib

**Qorilla olaraq tanınan Ndakasi, 14 yaşında selfi çəkərkən ölüb. SİA-nın xarici mətbuata istinadən verdiyi məlumata görə, Ndaskasi, onu 14 il əvvəl tapan baxıcısının qucağında ölüb.**



Ndakasinin yaşadığı Afrikanın ən qədim parklarından biri olan Virunga Milli Parkı, qorilla son şəklini paylaşarkən Baumanın qucağında öldüyünü bildirib. "Ndakasi, son nəfəsini baxıcı və ömürlük dostu Andre Baumanın sevgi dolu qucağında verdi" deyilib.

Parkın rəhbəri Bauma, 2007-ci ildə Ndakasini bala olaraq tapıb. Bauma Ndakasini tapanda ovçuların öldürdüyü anasını axtardığını və heç kimin ona sağ qalma şansı vermədiyini bildirib. Ndakasini tapanda 2,4 kiloqram ağırlığında olduğunu qeyd edən Bauma, buna baxmayaraq qorillanın həyatını qoruya bildiyini, 65 kiloqrama çatdığını və sağlam bir həyat sürdüyünü vurğulayıb. Ndakasinin onu ailəsi olaraq gördüyünü söyləyən Bauma "Məni görəndə qaçıb qucağıma tullanırdı. Bunu anası ilə də edirdi" - deyib.

***R. Orucova***

# 4 badamı 24 saat suda saxlasanız nə olar?




***Əsl təbii möcüzəyə şahid olmaq istəyirsinizsə, 4 badamı bir gecədə suda saxlamalısınız. SİA xarici mətbuata istinadən xəbər verir ki, badam suda gözlədildikdə fermentləri aktivləşən badam, faydaları ilə insanı təəccüblənməyə məcbur edəcək. Maqnezium, sink, kalsium, omeqa 3 və E vitamini və minerallarla zəngin olan badam, su qalarkən tərkibindəki fermentləri buraxır. Bədənimiz islanmış badamı daha tez həzm edir.***

Hər gün 4 isladılmış badam yeyin

Bu sizə enerji verir. İçindəki mis, riboflavin və maqnezium maddələr mübadiləsini sürətləndirir və arıqlamağı asanlaşdırır. Suda gözlədilən badam kalium, doymamış yağ və zülal baxımından güclüdür. Həmçinin, badam damarlara zərər verən iltihabı aradan qaldırır. E vitamini sayəsində ürək xəstəliklərini minimuma endirir. Eyni zamanda tərkibindəki maqnezium ani infarktın qarşısını alır.

*Rüqəyya*

# Evdən beş min manatlıq oğurluq edənlər tutulub



Sabunçu rayonunda evdən beş min manatlıq oğurluq edən şəxslər saxlanılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, sentyabrın 15-də rayon ərazisindəki evlərin birindən 5280 manat dəyərində kondisioner, televizor, məişət əşyaları, təmir-tikinti alətləri və 20 kisə sement oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakinləri H.Daşdəmirov, Q.Məmmədov və Saatlı rayon sakini, əvvəllər məhkum olunmuş E.Nəcəfov Sabunçu Rayon Polis İdarəsinin 14-cü polis bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanılıblar. Faktla bağlı rayon polis şöbəsi tərəfindən araşdırma aparılır.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4600**